www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 fevral 2019-cu il Cümə № 30 (7200) Qiymәti 60 qәpik

Xəbər

## Növbədənkənar parlament seçkiləri iyunda ola bilər

yazısı səh.5-də

Gündəm

### Prezident İlham Əliyev zəlzələ bölgəsinə getdi



Zəlzələdə ziyan görən ailələrə baş çəkən dövlət başçısı onlarla görüşüb, dövlət strukturlarına müvafiq tapşırıqlar verib

yazısı səh.3-də

### Cahangir Hacıyev 4.7 milyardlıq ittihamdan danışdı

yazısı səh.13-də

### Makronun qərarı Azərbaycanda sərt etiraz doğurdu

yazısı səh.9-da

### "Exchange"lərin açılması yenidən gündəmdə-qanun dəyişir

yazısı səh.10-da

### Yeni "beyin mərkəzi" yaradılır-politoloqun şərhi

yazısı səh.6-da

### "Xalqları sülhə hazırlamaq" prosesi niyə Bakıdan başlayıb?

yazısı səh.8-də

### Avropa İttifaqı ilə Bakıda mühüm müzakirələr

yazısı səh.6-da

### Bu gün Gürcüstanda heykələ etiraz aksiyasıdır

yazısı səh.9-da

### Bahalaşmanı kimlər yaradır - pərakəndə ticarətçilər, yoxsa...

yazısı səh.11-də

### "Azərsu"nun qarşısında "20 Yanvar" "faciəsi": xaos, çığır-bağır, tıxac...

yazısı səh.10-da

### Müxalifətin banklarda nə qədər pulu var?

yazısı səh.13-də

### Ölkədə on minlərlə insan sürüşmə zonasında yaşayır-təhlükə

yazısı səh.12-də

# "RUSİYA AĞAMIZ VƏ "MÖVLAMIZ"...- ERMƏNİ HÖKUMƏTİ 5 İLLİK PRİORİTETİNİ AÇIQLADI

İşğalçı ölkədəki "məxməri inqilab"ın mənəvi qələbəsi də dəfn edilir; hökumətin yeni proqramının təsdiqlənməsi ərəfəsində Rusiya səfirinin Paşinyan əleyhdarları ilə aktiv təmaslara keçməsinin sirri; Moskva "B planı"nı işə salır?..




yazısı səh.4-də

# Tikinti oliqarxları hücumda

Beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini pisləşdirəcək "taktika"; **ekspert:** "Komitə, sadəcə, hamıdan tələb edir ki, inşaatı tikinti və şəhərsalma qaydalarına uyğun aparsınlar"

yazısı səh.12-də



Novruz Məmmədov

### Deputatlardan baş nazirin "giləmeyvə cəriməsi" qərarının ləğvinə reaksiyalar

yazısı səh.5-də



Erl Litsenberqer

### Yeni ABŞ səfiri Bakıya gəlir - ləngimənin səbəbi şatdaundur

yazısı səh.7-də



*Qulu Məhərrəmli:*

### "Özəl kanallar elə uçuruma gedir ki, heç bir şura onun qarşısını ala bilməz"

yazısı səh.11-də

# Şamaxının millət vəkili Elxan Süleymanov zəlzələ bölgəsində olub





**Milli Məclisdə Şamaxını təmsil edən Elxan Süleymanov deputatı olduğu bölgəyə səfər edib. Musavat.com xəbər verir ki, deputat rayonda yerli sakinlərlə görüşüb. Millət vəkili fevralın 5-də və 6-da baş vermiş təbii fəlakətdən zərər çəkən sakinlərə baş çəkib, qəzalı vəziyyətə düşən tikililərə baxış keçirib.**

Şamaxı şəhərinin Səttar Bəhlulzadə və Vidadi Məmmədov küçələrində yerləşən 2, Şəhriyar qəsəbəsində 3 ünvanda olan Elxan Süleymanov zəlzələ nəticəsində yararsız hala düşmüş evlərdə yaşayan 5 ailəyə maddi yardım edib.



## "Gəncə hadisələri ilə bağlı 88 nəfər həbs edilib" - baş prokuror

**Gəncə hadisələri ilə bağlı 51 şəxs barəsində 6 cinayət işi ayrıca icraata ayrılıb. Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, bu barədə fevralın 7-də Baş Prokurorluqda Mərkəzi Aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə prokurorluq orqanları tərəfindən 2018-ci ildə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclasında baş prokuror Zakir Qaralov bildirib.**

Qeyd olunub ki, radikal dini yönümlü bir qrup şəxs tərəfindən Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının qarşısında zorakılıq aktları, hakimiyyət nümayəndələrinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaş törədilməsi, 2 polis əməkdaşının qəsdən öldürülməsi və sair faktlar üzrə ibtidai istintaqı aparılan cinayət işi üzrə 59 nəfər təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barələrində həbs-qətimkan tədbiri seçilib, 1 nəfər barəsində isə həbsli axtarış elan olunub.

Həmin cinayət işinin materiallarından 51 şəxs barəsində 6 cinayət işi ayrıca icraata ayrılaraq aidiyyəti üzrə baxılmaları üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

## Borclu qismində axtarışda olan daha 12 nəfər saxlanıldı

**Fevralın 6-dan 7-dək daxili işlər orqanlarında qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumat açıqlanıb. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən gün ərzində 22 cinayətin üstü "isti izlər"lə açılıb. Əvvəlki dövrlərdən bağlı qalmış 44 cinayətin açılması təmin olunub.**

Axtarışda olduğuna görə ümumilikdə 26 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 2 nəfər, borclu şəxs qismində axtarışda olan 12 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında 5 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 1 nəfər ölüb, 11 nəfər xəsarət alıb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 10 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 35 nəfər saxlanılıb.

## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**



## Nadir Axundov AzTV-dəki muğam müsabiqəsindən kənarlaşdırıldı

**Azərbaycan Yazıçılar Birliyinin (AYB) katibi İlqar Fəhmi AzTV-də yayımlanan "Muğam Televiziya Müsabiqəsi-2019" layihəsinin icraçısı təyin olunub. Bu barərdə modern.az-a Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin mətbuat xidmətinin rəhbəri Xatirə Qasım məlumat verib.**

Beləliklə, 7-ci Müğam Televiziya Müsabiqəsinin münsiflər heyətinin tərkibinə ustad sənətkarlar - xalq artisti Əlibaba Məmmədov, xalq artisti Arif Babayev, xalq artisti Səkinə İsmayılova, xalq artisti Mələkxanım Əyyubova, xalq artisti Mənsum İbrahimov, Azərbaycan Bəstəkarlar İttifaqının katibi, əməkdar incəsənət xadimi Sərdar Fərəcov, Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi daxildir.

Bundan başqa, müsabiqə iştirakçılarını yeni tərkibli musiqiçi heyəti müşayiət edəcək. Müsabiqənin Novruz bayramı ərəfəsində başlanması gözlənilir.

Qeyd edək ki, Müğam Televiziya Müsabiqəsinin münsiflər heyətinin tərkibindən Nadir Axundov kənarlaşdırılıb.

Nadir Axundov bir neçə gün öncə "Mədəniyyət" telekanalının direktor müavini vəzifəsindən də azad edilib.

## Köçəryan həbsdə qaldı

**Ermənistan Apelyasiya Məhkəməsi eks-prezident Robert Köçəryanı həbsdə saxlayıb.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, bunu jurnalistlərə açıqlamasında erməni prokuror Vaaqn Muradyan deyib.

"Məhkəmə qərarını elan etdi. Məhkəmə heyəti tam olaraq müdafiə tərəfinin bütün şikayətlərindən imtina etdi. Köçəryan həbsdə qalmağa davam edəcək"-deyə, o bildirib.

Qeyd edək ki, 10 nəfərin öldüyü, 200 nəfərin xəsarət aldığı 2008-ci il 1 mart qırğınlarında və konstitusion nizamı devirməkdə ittiham edilən R.Köçəryan keçən il həbs olunub.

## Külli miqdarda dərmanın qanunsuz yolla Azərbaycana keçirilməsinin qarşısı alınıb

**Dövlət Gömrük Komitəsinin Bakı Baş Gömrük İdarəsi tərəfindən qida təhlükəsizliyi və insan sağlamlığına mənfi təsir edən digər amillərin aradan qaldırılması ilə əlaqədar həyata keçirilən tədbirlər nəticəsində külli miqdarda dərman preparatları müsadirə edilib.**

Komitədən verilən məlumata görə, Bakı Baş Gömrük İdarəsi tərəfindən "City Farm" MMC-nin ünvanına 99LC081/99ZC081 nömrə nişanlı nəqliyyat vasitəsində daxil olan 10 000 kq, 12 500 ABŞ dolları dəyərində "Yodex S Povidon" adlı dərman preparatları Bakı Baş Gömrük idarəsinin əməkdaşları tərəfindən normativ sənədlərə uyğun olmadığı üçün saxlanılıb.

Daha sonra gömrük əməkdaşının sayıqlığı və peşəkarlığı sayəsində məlum olub ki, Səhiyyə Nazirliyi "Analitik Ekspertiza Mərkəzi" MMC-nin verdiyi məktubu (sənədi) etibarnamə əsasında həmin şirkətin gömrük işlərini həyata keçirən Həsənov Pərviz Telman oğlu saxtalaşdırıb və yenidən Bakı Baş Gömrük İdarəsinə təqdim edib. Məktubun (sənədin) saxtalaşdırılması ilə bağlı toplanılan sənədlər DGK-nın Əməliyyat-İstintaq Baş İdarəsinə göndərilib.

Azərbaycan vətəndaşı P.Həsənova CM-in 206.1- ci maddəsi ilə cinayət işi başlanıb və həmin maddə ilə ittiham elan edilərək barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Qeyd edək ki, adı-çəkilən dərman preparatları Bakı Baş Gömrük İdarəsi tərəfindən ekoloji poliqonda məhv ediləcək.

Faktla bağlı araşdırma aparılır.

## Tanınmış meyxanaçının ayağı tutulub

**Tanınmış meyxanaçı Ağakərim Novruzovun səhhəti pisləşib. Yenicag.az-a açıqlama verən meyxanaçının oğlu Kamil Novruzov ayaqları tutulan atasının xəstəxanaya yerləşdirilməsi üçün təcili pul lazım olduğunu bildirib:**

"Atamın səhhəti qəfildən pisləşdi. Beynində qansızmalar oldu, bu da ayaqlarının tutulmasına gətirib çıxardı. Nitqində də problemlər var, danışanda çətinlik çəkir. Xəstəxanaya yerləşdirmək lazımdır. Amma maddi durumumuz buna imkan vermir. Çünki xəstəliyinə görə iki ildir atam toylara, el şənliklərinə getmir. Onun da qazancı toylardan çıxırdı. Sağ olsun dostları kömək edir, amma bu, onun sağalması üçün kifayət etmir. Atam abırlı-həyalı insandır, heç vaxt çətinliklərinə görə ağız açmayıb. Amma indi buna məcburam. Əgər lazım olan məbləğ tapılsa, atamı xilas etmək olar. Yoxsa ömürlük şikəst qalacaq".

## Azərbaycanda hər ay 1137 ailə dağılır

**"Əvvəllər ailənin dağılmasında əsas məsələ sonsuzluq göstərilirdi. Bu gün uşaqlı ailələrdə boşanma artıb. Bir uşaqlı ailələrdə boşanma 71 faizə çatıb. Gənclər ailəyə oyun kimi baxırlar. Bu çox acınacaqlıdır".**

Virtualaz.org bildirir ki, bunu Milli Məclisin Ailə, qadın və uşaq problemləri komitəsinin sədri Aqiyə Naxçıvanlı "Gənclər və ailə: ənənə və müasir baxış" mövzusunda keçirilən tədbirdə deyib.

A.Naxçıvanlı ötən il boşanma halların çoxalmasının narahatlıq doğurduğunu bildirib: "2018-ci ilin 12 ayı ərzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən 13655 boşanma halı qeydə alınıb. Demək olar ki, hər ay 1137 ailə dağılır. Ailələrin dağılmasına səbəb kimi ev, maşın, mülk daha çox üstünlük təşkil edir. Sevgi, səmimiyyət yavaş-yavaş uzaqlaşır. Evliliyə oyun kimi baxırlar. Bu nəsil o biri nəsilə acıq verir, dəbdəbəli toy edir, gənclər limuzinlə yola salınır, Maldiv adalarında istirahət edirlər və bir aydan sonra ailə yoxdur. Hər ay qəbula 30 nəfər gəlir. Hamısı mülk, uşaq və aliment davasıdır".

Komitə sədrinin fikrincə, araşdırmalar göstərir ki, tərəflərin bir-birini tanımaması, məişət zorakılığı, evlilikdən öncə ciddi düşünməmək, erkən nikah, məcburiyyət halları, maddi vəziyyət, kənar müdaxilələr, qayınana-qayınatalar ailə münaqişələrinə, məişət zorakılığına və boşanmalara gətirib çıxarır.

A.Naxçıvanlı həmçinin qeyd edib ki, ailə siyasətində mənəvi dəyərlər olsaydı, belə hallar yaşanmazdı: "Şəxsiyyətin yetişməsində mühitdən əvvəl ailənin rolu böyükdür, əsas dəyərlər məhz ailədə qorunub saxlanılır və formalaşır. Ailə kiçik dövlətdir və öz qanunları var".

## Ukrayna səfiri Azərbaycanı tərk edir

**Xarici işlər naziri Elmar Məmmədyarov diplomatik fəaliyyətinin başa çatması münasibətilə Ukraynanın Azərbaycandakı səfiri Aleksandr Mişenkonu qəbul edib.**

XİN-dən BakuPost-a verilən məlumata görə, görüş zamanı tərəflər iki ölkə arasında siyasi və iqtisadi əlaqələrin inkişafından məmnunluqlarını bildiriblər. Bu xüsusda səfir A.Mişenkonun səyləri yüksək qiymətləndirilib.

Səfir Aleksandr Mişenko diplomatik fəaliyyəti müddətində Azərbaycan tərəfindən ona göstərilən dəstəyi xüsusi qeyd edib və təşəkkürünü bildirib. Nazir Elmar Məmmədyarov səfir Aleksandr Mişenkoya gələcək fəaliyyətində müvəffəqiyyətlər arzulayıb.

YENİ MÜSAVAT
N 30 (7200) 8 fevral 2019

# Prezident İlham Əliyev zəlzələ bölgəsinə getdi

## Zəlzələdə ziyan görən ailələrə baş çəkən dövlət başçısı onlara dəstək olub

**Fevralın 7-də prezident İlham Əliyev zəlzələnin baş verdiyi Şamaxı rayonuna səfər edib. Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov dövlətimizin başçısına fevralın 5-də və 6-da təbii fəlakətin törətdiyi fəsadlar barədə yerində məlumat veriblər. Prezident İlham Əliyev zəlzələdən zərər çəkən tikililərə baxıb və rayon sakinləri ilə görüşüb. Zəlzələdə ziyan görən evlərə baş çəkən dövlət başçısı kəndlilərə dəstək olub.**











***

Fevral ayının 5-də gecə saatlarında Şamaxı və İsmayıllı rayonlarında baş vermiş zəlzələnin afterşokları davam edərkən, insanlar da tədricən hadisənin xofundan xilas olmağa çalışırlar. Hadisə baş verən rayonda isə zəlzələnin törətdiyi dağıntılar, dəymiş ziyan dövlət qurumları tərəfindən araşdırılır və müvafiq tədbirlər görülür. Hadisədən sonra fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov əraziyə baş çəkərək müvafiq addımların atılması ilə bağlı göstəriş veriblər.

6 bal gücündə zəlzələ ölkənin yol təsərrüfatına da müəyyən qədər ziyan vurub. Şamaxı və İsmayıllı rayonlarında baş vermiş zəlzələ nəticəsində avtomobil yollarının bəzi hissələrində yolların eni və uzunu boyu çatlar əmələ gəlib, sürüşmələr qeydə alınıb.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat xidmətinin rəhbəri Anar Nəcəflinin verdiyi açıqlamaya görə, Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 115-120-ci km-lik hissəsində 1-3 sm enində 5 yerdə çatlar yaranıb, Şamaxı-Pirqulu-Dəmirçi və Çuxuryurd-Qızmeydan-Pirbəyli avtomobil yollarında çatlar və sürüşmələr qeydə alınıb. Çatlar İsmayıllı-Muğanlı avtomobil yolunda da müşahidə olunur.

Sözügedən yollarda ciddi problem müşahidə olunmur və avtonəqliyyat vasitələrinin rahat və təhlükəsiz şəkildə hərəkətində hər hansı bir məhdudiyyət yoxdur.

Zəlzələnin təsirindən Şamaxıda 5 nöqtədə qaz xətləri zədələnmişdi. "Azəriqaz" İstehsalat Birliyindən verilən məlumata görə, bununla bağlı Ağsu Regional Qaz İstismarı İdarəsinə məlumat daxil olan kimi Şamaxı rayonunun qaz təchizatı dayandırılıb və əməliyyat qrupunun əməkdaşları zəlzələ nəticəsində zədələnmiş, qırılmış qaz xətlərinə baxış keçiriblər.

Şamaxı rayonunun əhalisinin təbii qaz təchizatında yaranmış fasilənin tez bir zamanda aradan qaldırılması üçün artıq "Azəriqaz" İstehsalat Birliyinin aidiyyəti qurumları tərəfindən səhər saatlarından zədələnmiş qaz kəmərlərində təmir-bərpa işləri aparılıb və işlərin günorta saatlarına kimi başa çatdırılıb.

Qurumun mətbuat xidmətinin rəhbəri İbrahim Kərbalayev də "Yeni Müsavat"a danışarkən bildirdi ki, Şamaxı rayonunun qəza yaranan kəndlərində təbii qazın verilişi bərpa edilib. İ.Kərbalayev abonentlərə bu günlərdə təbii qazdan istifadə ilə bağlı təhlükəsizlik qaydalarına riayət etməyi və mənzili tərk edərkən qaz xəttini bağlamağı tövsiyə etdi.

**Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli zəlzələdən sonra aparılan tədqiqatla bağlı "Yeni Müsavat"a danışarkən bildirdi ki, afterşoklar hələ davam edir və edəcək:** "Ancaq dünəndən etibarən artıq təkanlar çox zəifləyib və hiss edilmir. Yalnız cihazlar onu qeydə alır və əməkdaşlarımız araşdırırlar. Proses hələ davam edir və edəcək. Araşdırmalarımız isə ondan ibarətdir ki, artan afterşokların hansı istiqamətdə getdiyini müəyyənləşdiririk. Əlavə stansiyalar qurulub, onların da məlumatlarından istifadə edirik. Ocaqda gedən prosesləri daha dəqiq öyrənmək üçün əməkdaşlarımız orada profil üzrə tədqiqat aparırlar. Gərginlik sahələrinin müəyyənləşdirilməsi, gərginliyin hansı səviyyədə olmasının öyrənilməsi işləri aparılır. Əməkdaşlarımız makroseysmik tədqiqatlar aparır, episentrdən dalğa sönənə qədər hansı ərazilərdə qeydə alınıb, buna uyğun izoseys xəritələr hazırlanacaq, 6 baldan 2 bala qədər bütün təkanlar qeydə alınacaq".

### Zəlzələ zamanı nə etməli?

Əsası odur ki, zəlzələ olduğu təqdirdə hamı adi təhlükəsizlik qaydalarına riayət etməlidir. Zəlzələlərin tarixi və təhlili sübut edir ki, bu təbiət hadisəsindən qorunmağın əsas yolu adamların fəlakət baş verdiyi anda özlərini itirməməsidir.

İlk təkanları hiss edən kimi heç bir vahiməyə düşmədən, səs-küy və qışqırtı salmadan, təmkinlə hərəkət etməklə, həm özünüzə, həm də ailə üzvlərinizə bir o qədər kömək göstərə bilərsiniz.

Yeraltı təkanları hiss edən kimi dərhal mənzilin və otağın qapısını açın. Zəlzələ nəticəsində divarların əyilməsindən və bütövlükdə binanın deformasiyasından giriş qapıları əksər halda pərçimlənir ki, bu da sonradan onu açıb otaqdan rahat çıxmağa imkan vermir. Sakitcə gözləyin, başqalarını qorxuya sala biləcək hərəkətlərə yol verməyin.

Zəlzələ zamanı əksər bədbəxt hadisələr ondan yaranır ki, adamlar tələsik otaqdan və ya binadan çıxmağa, yaxud küçədədirlərsə, evə daxil olmağa çalışırlar. Bəziləri isə hətta yuxarı mərtəbələrin pəncərələrindən tullanırlar ki, bu da çox vaxt bədbəxt hadisələrlə nəticələnir. Əgər otaqdasınızsa, təcili olaraq təhlükəsiz yerə keçin. Masanın və ya çarpayının altına girin. Daxili qapı boşluğunda və ya otağın əsas divarına yaxın olan daxili küncündə durun. Yadda saxlayın ki, ən çox binanın xarici divarları uçur. Ona görə də heç vaxt otağın xarici divarına yaxın yerdə, xüsusilə də otağın və ya zalın ortasında durmayın. Pəncərələrdən, yerindən tərpənən və yıxıla bilən ağır əşyalardan, məsələn, soyuducudan, mebeldən və s. uzaq dayanın.

Əgər siz çox da hündür olmayan binanın içindəsinizsə, yaxşı olar ki, oranı tərk edəsiniz. Yuxarıdan düşən daş parçalarından və şüşə qırıntılarından özünüzü qorumaq şərtilə binadan bacardıqca tez və ehtiyatla çıxın. Çoxmərtəbəli binanın içərisindəsinizsə, onda ən yaxşısı elə oradaca qalmaqdır. Pilləkənə çıxmağa və liftə minməyə tələsməyin. Birincisi, əksər hallarda ola bilsin ki, lift işləməsin, ikincisi, pilləkəndə basabas yaransın. Bundan başqa, unutmayın ki, zəlzələ vaxtı ən çox lift və pilləkən sıradan çıxır. Siz liftdə olan zaman zəlzələ baş verdiyini hiss edərsinizsə, bu vaxt hansı mərtəbədə olduğunuzdan asılı olmayaraq çıxış düyməsinə basmalı və olduğunuz mərtəbədə lifti dayandırıb, oranı dərhal tərk etməlisiniz.

Güclü zəlzələdən sonra təkrarlanan təkanlardan qorxmayın. Bu heç də yeni zəlzələ deyildir. Bəzən ilk təkandan sonra təkrar zərbələr zədələnmiş və konstruksiyaları zəifləmiş binaların dağılmasına gətirib çıxarır. Küçədə olduğunuz zaman isə binalardan, divar diblərindən, pəncərələrdən, reklam plakatlarından, uçqun kənarlarından, körpülərin üstündən və altından, elektrik dirəklərindən uzaq dayanmalı, təhlükəsiz və etibarlı bir açıq sahəyə doğru getməlisiniz. Zəlzələ sona çatana qədər orada qalmalısınız. Torpaq sürüşməsi olan sahələrdən, daş və qaya parçalarının düşə biləcəyi dik qayaların yaxınlığından və dik yamacların ətəklərindən uzaqlaşmaq lazımdır. İlk təkan baş verən kimi elektrik enerjisi kəsilərsə, bundan narahat olmayın, çalışın ki, mənzilinizə daxil olan qaz və elektrik enerjisini bağlayasınız. Nəqliyyatdan istifadə edərkən ani olaraq zəlzələ baş verdikdə isə yolu bağlamadan sağa çəkib avtomobili dayandırmalısınız. Körpülərdən, keçidlərdən, binalardan, elektrik dirəklərindən, enerji xətlərindən, tunellərin giriş və çıxışlarından və dəniz kənarlarından uzaq dayanmağınız məsləhətdir.

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 30 (7200) 8 fevral 2019



# Bəs Lapşinin anasını niyə ağladırdıq?

Samir SARI

**Qıllı-qılaflı, dolaqlı-patavalı şəkildə həyatımıza soxulmuş facebookun çox bəyəndiyimiz bir funksiyası var - bloklama.**

Bu funksiya vasitəsilə eyzən nifrət qusan pərto ağızları qapatmaq, latayır danışan dilləri "kəsmək", klaviaturada palaz səviyyəsində düşük-düşük cümlələr yığan barmaqları qurutmaq, hökumət adamlarının sözü olmasın, hər şeyi qara görənlərin gözlərini örtmək olur.

Onları seçib atırsan bloka, nə sənin yazdıqlarını görür, mənasız mübahisələrə girişirlər, nə də sən onların yazdıqlarını görmürsən, qanın da qaralmır. Nəticədə xeyli boş vaxt və qulaq dincliyi qazanmış olursan.

Bir ara dəb idi, müxtəlif siyasi, dini baxışlara, fərqli mədəni səviyyələrə malik olan insanlar bu platformada saatlarla, bəzən günlərlə, hətta aylarla davam edən mübahisələr aparırdılar: "Bizi qoyub gedib BMP ilə saziş bağladınız"; "Bizim partiyadan qopmalar olanda siz onu parçalanma kimi qələmə verdiniz"; "1992-ci ilin dekabrında siz...."; "1993-cü ilin iyununda biz..."; "1998-ci ilin oktyabrında onlar..."; "O vaxt sizin lider meydana niyə gəlmədi?"; "26 noyabrda xalqı meydanda oturmağa çağıran, iki dəqiqədən sonra meydandan qaçan siz olmadınızmı?"; "2000-ci ildə sizə saxta mandat verdilər, gedib parlamentdə oturdunuz"; "2005-ci ildə də sizə mandat verdilər, imtina etmədiniz" və sair və ilaxır.

Bütün bu mənasız, sonu görünməyən, min il ərzində davam edə biləcək mübahisələrin həllinin bircə yolu var: eyzən cığallıq edən, heç cür adam balası kimi polemika apara bilməyən və buna çalışmayan adamlarla söhbəti, ünsiyyəti birdəfəlik kəsmək. Onun adı blokdur. Qoy hər kəs öz dostlar dairəsində olsun, elə hey özləri deyib, özləri eşitsinlər. İki qapıya futbol oynamaq alınmırsa, təkqapıya oynamaq da bir şeydir, heç olmasa adam formada qalır.

İndi baxıram, Xarici İşlər Nazirliyimiz də arzuolunmaz və xoşagəlməz adamlara qarşı bloklama siyasəti yeridir. Hər birimiz kimi XİN-imizin də "qara siyahı"sı var. Bizim kimi, xarici siyasət idarəmizin də "qara siyahı"sı ad-soyadlarla ləbələb doludur.

İntəhası, bizdən fərqli olaraq XİN tez-tez öz blok siyahısından kimlərinsə adını çıxarır və bunu təntənə ilə bəyan edir, informasiya yayır.

Düzdür, bəzən facebook istifadəçiləri də "amnistiya" elan edir, vaxtilə söyüşüb-dalaşdığı, əsəbi şəkildə blokladığı adamı bağışlayır, blokdan çıxarır, amma təcrübə göstərir ki, "humanizm prinsiplərini əldə rəhbər tutan" şəxs sonradan peşman olur. Çünki "bağışlanan" adam ilk fürsətdə yenə onun liderinə, çox qanacaqsızdırsa, anasına söyür. Demək, belə məsələlərdə çox da ürəyiyumşaq olmaq olmaz, adamla münasibəti birdəfəlik ayırd etmisənsə, qoy getsin işinin ardınca.

Amma XİN-imiz fərqli düşünür, düşmənimizin əlinə oynamış, onu təbliğ etmiş və haqlı olaraq "arzuolunmaz şəxslər" siyahısına salınmış adamları o siyahıdan çıxarır.

Məsələn, axırıncı dəfə belə bir mərhəmətli addım Ukrayna vətəndaşı teleaparıcı Nadia Bazivə qarşı atılıb. Nadia Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək, adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş əcnəbilərin siyahısı"ndan çıxarılmasını xahiş edib və XİN bu arzunu gerçəkləşdirib.

Düzdür, teleaparıcı öz məktubunda "tort yemişəm, çox yemişəm" mənası verən ifadələr də işlədib, bundan sonra Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərlərdən çəkinəcəyini qeyd edib, amma yenə də onu asanca bağışlamaq olmazdı. Çünki onun bizə işi düşüb, ölkəmizə səfər etmək niyyətindədir, o, gəlib-gedəndən sonra yenə də Vəngə səfər edib, ənənəvi qoduqötüşdürmə yarışlarına tamaşa edəcək.

Məndən olsa, Nadia Bazivin adı arzuolunmaz şəxslər siyahısından çıxarılmazdı. Qoy qalsın orada. Yox, gedib Xankəndində, Şuşada yeyib-içib gəzəcəklər, sonra "bağışlayın, bir də eləmərik" deyəcəklər, biz də dərhal bağışlayacağıq. Düzgün deyil.

Belə edəcəkdiksə, onda "DQR"ə səfər etdiyinə görə həbs etdiyimiz Lapşinin anasını Bakıda, sözün əsl mənasında, niyə ağladırdıq?

# "Rusiya ağamız və "mövlamız"... - erməni hökuməti 5 illik prioritetini açıqladı

## İşğalçı ölkədəki "məxməri inqilab"ın mənəvi qələbəsi də dəfn edilir; hökumətin yeni proqramının təsdiqlənməsi ərəfəsində Rusiya səfirinin Paşinyan əleyhdarları ilə aktiv təmaslara keçməsinin sirri; Moskva "B planı"nı işə salır?..




**Ermənistanın yeni hökumətinin 5 illik proqramında nələrin yer aldığı təxminən bəlli olub. Parlamentdə təsdiqlənməsi gözlənilən layihə-sənəddə ölkənin xarici siyasətinin əsas oriyentirləri də yer alır. "Yeni Müsavat"ın Ermənistandakı qaynaqlara istinadla verdiyi xəbərdən bəlli olur ki, rəsmi İrəvan ölkənin əsas prioriteti qismində Rusiya ilə strateji əlaqələri dərinləşdirməyi görür.**

"Rusiya ilə strateji və müttəfiqlik əlaqələri dərinləşdirmək bizim əsas prioritetlərimiz sırasındadır. Ermənistan-Rusiya münasibətləri dostluq, bərabərlik (?! -"YM") problemləri birgə səylərlə həll etmək prinsipinə əsaslanır. Hökumət Rusiya ilə hərbi əməkdaşlığı Ermənistanın təhlükəsizlik sisteminin təminatı üçün mühüm element hesab edir" - sənəddə bildirilir.

Qeyd edək ki, fevralın 6-da hökumət proqramın təsdiqi ilə bağlı səsverməni təxirə salıb. Səbəb kimi də baş nazir Nikol Paşinyanın sənədə düzəlişlər və redaktə eləmək istəyi göstərilir. Hər necə olmasa, Paşinyan keçmiş qəzet redaktorudur.

*****

Ancaq bunlar təbii ki, ikinci, üçüncü dərəcəli məsələlərdir. Yəni heç bir düzəliş və redaktədən sonra hökumətin prioritetləri dəyişən deyil. Paşinyan bunun əksini iddia eləmək üçün indiyədək heç bir mesaj, anons verməyib. Təsadüfi deyil ki, proqram-layihədə bildirilir ki, "hökumət Ermənistanın Avrasiya İqtisadi Birliyi və KTMT-də fəal və təşəbbüskar iştirakını təmin eləmək, bu strukturların effektivliyinin artması yönündə aktiv işləyəcək". O da qeyd olunur ki, sənədin məzmunu ilə bağlı hökumət üzvlərinin hər hansı iradı olmayıb.

Baş nazirin müavini Tiqran Avinyan isə deyib ki, sənəd "Mənim addımım" blokunun seçkiöncəsi proqramı əsasında hazırlanıb. Həmin proqramda Rusiya ilə strateji və hərbi-siyasi müttəfiqlik münasibətlərinin saxlanması "qırmızı xətt" kimi keçirdi. Erməni mənbələri dünən yazıb ki, hökumət proqramı faktiki şəkildə qəbul edib.

Beləliklə, Rusiya daha 5 il Ermənistanın ağası və "mövlası" olaraq qalacaq. Bu, həmçinin o anlama gəlir ki, Nikol Paşinyan inqilab öncəsi öz xalqına verdiyi əsas vədlərdən biri - ölkəni Rusiya asılılığından çıxarmaqla bağlı sözündən rəsmən vaz keçməyə hazırlaşır. Əslində Nikol hakimiyyətə gələndən bəyan edirdi ki, Ermənistan Rusiyanın orbitindən uzaqlaşmaq, Avrasiya Birliyi və "Rus NATO-su"ndan (KTMT) çıxmaq niyyətində deyil. Beləcə, erməni "məxməri inqilabı"nın əsas hədəfi gündəmdən çıxmaq üzrədir. Çünki Rusiya asılılığında inkişaf və rifah mümkün deyil...

*****

Maraqlıdır ki, bu ərəfədə Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin İrəvanda daşnakların və hakimiyyətdən devrilmiş Serj Sərksyanın partiyasının - Respublikaçılar Partiyasının odioz təmsilçiləri ilə görüşüb. Yada salaq: bu, o keçmiş hakim partiyadır ki, son parlament seçkilərində 5%-dən də az səs toplayıb və parlamentə düşə bilməyib. Halbuki cəmi ilyarım qabaqkı analoji seçkilərdə (2017, aprel) 50%-ə yaxın səs almışdı və ya özünə yazdırmışdı. Eləcə də "Daşnaksütyun" Partiyası bu dəfə seçki barajını aşa bilməyib.

Rusiya səfirinin ictimai reytinqi sıfırın yanında olan bu qüvvələrin təmsilçiləri ilə bir araya gəlməsi diqqət çəkməyə bilməz. Bunlar əlbəttə ki, Paşinyan və hökumətinə, onun yeni proqramını təsdiq eləməyə hazırlaşan təzə qərbyönlü parlamentə ciddi siqnal və hətta xəbərdarlıq mesajı sayıla bilər.

Görünür, Rusiya Ermənistanın yeni hökumətinin əsas prioritetinin məhz Rusiya olması üçün bəzi ön tədbirlərə və təhdidlərə start verib. Özünə sadiq yerli siyasi, radikal qüvvələrə açıq dəstək nümayiş etdirməklə fors-major vəziyyətdə "B planı"nı işə salacağının anonsunu verir.

*****

İstənilən halda Paşinyan hökumətinin yeni proqramda Rusiya faktorunu ciddiyə alması təbiidir və acı reallığın sərt diktəsi ilə bağlıdır. Dəfələrlə yazdığımız kimi, Dağlıq Qarabağ, işğal problemi qaldıqca Ermənistanın Rusiyadan vassal asılılığı da qalacaq - hakimiyyətdə hansı qüvvə olur-olsun. Bunu indiki iqtidar da dərk edəcək. Onu da tezliklə anlayacaq ki, Rusiyadan asılılıq, blokada şəraiti ölkədə heç bir ciddi iqtisadi-siyasi islahata imkan verməyəcək.

Ermənistan hökuməti isə islahatlar hesabına ordusunu daha müasir silahlarla təchiz edəcəyini xəyal edir. Belə ki, erməni KİV-i yazıb ki, hökumətin yeni proqramında işğalçı ordunun arsenalını uzaq mənzilli yüksək dəqiqliyə malik raketlər, aviasiya və robotlarla təchiz etmək niyyəti də əksini tapıb (axar.az).

**Layihədə bildirilir:** "Hökumət ordunun arsenalının yüksək dəqiqliyə malik uzaq mənzilli raket kompleksləri, müasir artilleriya kompleksləri, hava hücumundan müdafiə sistemləri, çoxfunksiyalı aviasiya, avtomatlaşdırılmış və robotlaşdırılmış hava, yerüstü sistemlərlə təchiz etməyi hədəfləyir. Bununla da ordunun atəş nöqtəsinin uzaqlıq və dəqiqlik səviyyəsinin effektivliyinin artırılması nəzərdə tutulur. Təhlükəsizliyin təminatı üçün daha bir vacib element kimi yerli hərbi sənaye inkişaf etməlidir".

Rəsmi İrəvan bunun üçün hərbi sənaye kompleksinə investisiya yatırmağı, özəl biznes üçün əlverişli investisiya mühiti yaratmağı planlaşdırır. Bu yöndə prioritet kimi texnoloji silahlanma, istehsal effektivliyinin artırılması, silah idxalından asılılığın azaldılması nəzərdə tutulur. Amma maraqlıdır ki, ölkəyə investisiyanı cəlb etmək proqramı və prinsipləri bəlli deyil. Ayrı sözlə, pulu, maliyyəni haradan, necə tapacaqlar?

Ümumiyyətlə, Ermənistanın hazırkı ağır iqtisadi durumdan qurtarması üçün təkliflər paketi yoxdur. Yeni Nikol Paşinyan hökumətinin blokada şəraitində, Rusiyadan vassal asılılığında qalmaqla vəsaiti haradan tapacağı olduqca maraqlı məsələdir. İqtisadi möcüzələr dövrü isə çoxdan bitib...

**"Yeni Müsavat"ın analitik xidməti**

Yeni Müsavat
N 30 (7200) 8 fevral 2019

# Deputatlardan "giləmeyvə cəriməsi" qərarının ləğvinə reaksiyalar

## Prezidentin göstərişindən sonra baş nazir Novruz Məmmədov öz qərarına xitam verdi

**Bu həftənin həm mediada, həm də sosial şəbəkələrdə ən çox müzakirə edilən mövzusu meşələrdən əhalinin mer-meyvə yığmasına Nazirlər Kabinetinin qoyduğu qadağa oldu. Prezident İlham Əliyevin göstərişindən sonra baş nazir Novruz Məmmədov öz qərarına xitam verdi.**

Bəzi müşahidəçilərin fikrincə, dövlət başçısının məsələyə operativ reaksiyasına səbəb ictimai rəydən xəbərdar olması idi. NK-nın bu qərarı hətta hakimiyyətə yaxın adamların da etirazına səbəb olmuşdu.

İkincisi, narazılıq edənlər arasında iqtidaryönlü deputatların, yazarların olması NK-nın bu absurd qərarının ləğvinə ciddi təsirini göstərmiş oldu. Cəmiyyətin sərt reaksiyası ilə qarşılanan bu qərar əslində prezidentin fəaliyyətinə yönəlik addım kimi də qiymətləndirilə bilər. Xüsusən prezidentin şəhid ailələri ilə görüşü, sonra Şamaxıda zəlzələdən zərərçəkənlərlə görüşə getməsi fonunda NK-nın qərarının ləğv olunması barədə göstərişi İ.Əliyevin xalqı narahat edən problemlərə şəxsi həssaslığını nümayiş etdirdi.



### Fazil Mustafa: "Görünür ki, müəyyən çevrələr öz maraqlarını güdüblər"

"Görünür ki, müəyyən çevrələr bu sənədi Nazirlər Kabinetinə təqdim edəndə öz maraqlarını güdüblər. Ancaq yaxşı ki, prezidentin belə qərarların ləğvi barədə göstəriş vermək səlahiyyəti var". Bu sözləri deputat Fazil Mustafa "Yeni Müsavat"a bildirdi.

Deputatın fikrincə, bəzən ciddi araşdırma aparmadan, vətəndaşı düşünmədən addımlar atılır: "İdarəetmədə belə hallar olur. Sadəcə, Azərbaycanda qərarlar cəmiyyətin müzakirəsinə buraxılmadan məmur beyni ilə verilir. Vətəndaşın meşədən giləmeyvə yığmasına icazə vermirsən, amma o boyda keçmiş nazir ölkənin yaşıllıqlarını məhv elədi, onu cərimələmirsən. Ona görə də qərar veriləndə bu sənəd əsaslandırılmalıydı".

**F.Mustafa prezidentin vətəndaşdan gələn mesajı nəzərə aldığını bildirdi:** "Əslində faciəli qərar deyildi. Hər vətəndaşın yanına qarovulçu qoyulmayacaqdı ki?! Sadəcə, parlamentdə bu cür məsələlər müzakirədən keçməlidir, cəmiyyətdə müzakirə ortamı olmalıdır, qərarlar müzakirədən sonra verilməlidir. Bütün hallarda vətəndaşın xeyrinə olan bu qərarın prezident tərəfindən dayandırılması müsbət haldır".

### Vahid Əhmədov: "Başa düşmürəm ki, bu qərar kimə lazım idi"

"Mən demişdim ki, düzgün deyil. İnsanlar meşələrdən meyvə yığırlar, qurudurlar, istehsal edirlər, 3-5 manat qazanırlar. Çox yaxşı oldu ki, prezident qərarın ləğvi barədə göstəriş verdi. Söhbət burada meşəni dağıtmaqdan getmir, meyvə emalından gedir. İnsanlar meşələrdə yığdıqları otlardan xalq təbabətində dərman kimi istifadə edirlər. Mən başa düşmürəm ki, bu qərar kimə lazım idi. Əhalinin ziddinə olan qərarları verməzdən əvvəl düşünmək lazımdır ki, bu bizə nə xeyir verəcək, büdcəyə nə gətirəcək. Ona görə qərarın ləğvi yerində oldu, prezident vətəndaşı nəzərə alaraq bu göstərişi verdi".

**Deputat Elmira Axundova isə baş nazirin qərarını ləğvdən öncə dəstəkləmişdi. Xanım millət vəkili demişdi ki, Novruz müəllim xalq içindən çıxmış adamdır, o, heç zaman camaata qarşı olan addım atmaz:** "İnsanlar bəzən meşələrdə bitən ağaclardan meyvə dərən zaman vəhşicəsinə onun budağını kəsirlər, təbiətimizə böyük zərər vururlar. Belə etmək olmaz. Axı meşədə bitən vəhşi meyvələr insanların nəyinə lazımdır? Meyvəni istifadə etmək olar, daha bunu vəhşicəsinə dərmək yolverilməzdir. Mən gözümlə görmüşəm, rayonlara gedəndə yol kənarlarında qoz satırlar. Həmin qozların budaqları ilə bərabər dərirlər".

Ötən gün bu qərarın ləğvi ilə bağlı E.Axundovanın mövqeyini öyrənmək istədik, lakin köməkçisi səhhəti ilə əlaqədar danışmaq imkanında olmadığını bildirdi.

### Hüquqşünas: "Qərarı qəbul edənlər qanunvericiliyi yaxşı incələməyib"

Hüquqşünas Ələsgər **Məmmədli yazıb ki, bu qərar 1993-cü ilin dekabrında qəbul edilib, o zaman isə bugünkü konstitusiya mövcud deyildi. Hüquqşünas bildirib ki, qərarı qəbul edənlər ölkə qanunvericiliyini yaxşı incələməyiblər:** "1995-ci ildən etibarən NK-nın istənilən qərarları konstitusiyaya ziddirsə, tətbiq edilə bilməz. Çünki 1993-cü ildə qəbul olunan qərarlar 1995-ci il konstitusiyasına ziddirsə, tətbiq edilməyəcəkdi. Bu qərarın yenilənməsi onun konstitusiyaya uyğun yenilənməsini tələb edirdi".

Bildirək ki, əgər qərarın tətbiqinə başlansaydı, yabanı (cır) meyvələrin (alma, armud, zoğal, alça və s.) hər kiloqramına görə 1 manat, peyvənd meyvələr (alma, armud, zoğal, alça və s.) hər kiloqramına görə 2 manat, itburnunun hər kiloqramına görə 2 manat, çaytikanının hər kiloqramına görə 3 manat, digər dərman bitkilərinin hər kiloqramına görə 2 manat, şabalıd və fındığın hər kiloqramına görə 2 manat, qozun hər kiloqramına görə 2 manat, fıstıq toxumunun 1.5 manat, palıdın hər kiloqramına 1 manat, cökənin hər kiloqramına görə 1.5 manat ödəniş nəzərdə tutulurdu. Bundan başqa, qamış, qarğı, meşə döşənəyi və tökülmüş yarpaqların hər kubmetrinə 50 qəpik ödəniş tətbiq olunacaqdı.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Növbədənkənar parlament seçkiləri iyunda ola bilər

## Ölkə üzrə seçici siyahılarının uzağı may ayına qədər tərtib olunması qərarı seçkiyə hazırlıqdır?

**Seçki Məcəlləsinin tələbinə əsasən 2019-cu il yanvar ayının əvvəllərindən etibarən ölkə üzrə seçici siyahısının dəqiqləşdirilməsinə başlanıb.**

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən verilən məlumata görə, siyahıların yüksək səviyyədə dəqiqləşdirilməsi üçün bu geniş miqyaslı işə respublikadakı bütün aşağı seçki komissiyalarının otuz mindən artıq üzvü cəlb olunub və dəqiqləşdirmə prosesində həm Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyinin müvafiq orqanları, həm də yerli icra strukturları və bələdiyyə qurumları ilə sıx əməkdaşlıq edilir. Qanunvericiliyə uyğun olaraq, vahid seçici siyahısının tərtib edilməsi ilkin olaraq məntəqə seçki komissiyaları tərəfindən aparılıb. Məntəqə seçki komissiyalarının üzvləri yerli icra orqanları və bələdiyyə qurumları tərəfindən təqdim edilən məlumatlar əsasında öz məntəqələrinin seçici siyahısını dəqiqləşdirərək, məntəqələr üzrə tərtib olunan seçici siyahılarını fevralın 5-dək müvafiq dairə seçki komissiyalarına təqdim ediblər.



Bundan sonra dairə seçki komissiyaları seçici siyahılarını yoxlayaraq əlaqədar qurumlardan daxil olan məlumat və statistik göstəricilərlə bir daha təhlil etməli və öz hüdudları daxilində müvafiq seçki dairələri üzrə ilkin seçici siyahılarını dəqiqləşdirərək aprelin 5-dək Mərkəzi Seçki Komissiyasına təqdim etməlidirlər.

Mərkəzi Seçki Komissiyası da öz növbəsində vahid seçici siyahısının ölkə üzrə tərtib edilməsini həyata keçirəcək. Xəbərdə bildirilir ki, bu prosesə ən geci may ayının sonuna qədər yekun vurulması və ölkə üzrə yenidən tərtib olunan vahid seçici siyahısının Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsində yerləşdiriləcək ictimailəşdirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, 2019-cu il dekabrın 27-də Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Dekabrın sonuna hələ xeyli vaxt qaldığını nəzərə alsaq, seçici siyahılarının indidən hazırlanması növbədənkənar parlament seçkilərinin keçiriləcəyi barədə son zamanlar yayılan xəbərləri yada salır. Növbədənkənar parlament seçkilərinin bu ilin aprelində keçiriləcəyinin gözlənildiyi haqda mediada tez-tez xəbərlər, ehtimallar üzərində fikirlər yayılır. MSK-nın yuxarıdakı xəbərində isə seçici siyahılarının hazırlanması prosesinə ən geci may ayının sonuna qədər yekun vurulacağı bildirilir. Bu məqama diqqət çəkən siyasi ekspertlər hesab edir ki, seçici siyahılarının indidən tərtib olunması və prosesin ən geci may ayında yekunlaşmasının nəzərdə tutulması növbədənkənar parlament seçkilərinin keçiriləcəyi ehtimalının daha yüksək olduğunun söyləməyə əsas verir. Sadəcə olaraq, mümkündür ki, bu seçkilər iyun ayında-seçici siyahıları tərtib olunub yekunlaşdıqdan dərhal sonra keçirilsin.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# 50 bələdiyyəyə büdcədən ilk dəfə pul ayrılacaq

**"Dəfələrlə parlamentdə bələdiyyələrə subvensiyaların ayrılması ilə bağlı məsələ qaldırmışıq. 2019-cu ilin dövlət büdcəsindən isə ilk dəfə olaraq bələdiyyələrə 1 milyon manat subvensiya ayrılıb. Burada əsas məqsəd ondan ibarətdir ki, bələdiyyələr müəyyən layihələr həyata keçirməklə gəlir əldə edə bilərlər".**

Bu sözləri modern.az-a açıqlamasında Milli Məclisin Regional məsələlər komitəsinin üzvü Tahir Rzayev deyib.

Deputat bildirib ki, bələdiyyələrin irəli sürdüyü layihələri həyata keçirməsinə görə həmin subvensiyadan onlara təxminən 100-200 min vəsait ayrılacaq.

"Həmin subvensiya vasitəsilə bələdiyyə özünün istehsal müəssisəsini aça, xidmət sahəsi yarada, uşaq bağçası tikə bilər. Lazımi layihəni təqdim edən bələdiyyələrə həmin subvensiya vasitəsilə də pul ayrılacaq. Artıq 50 bələdiyyə öz layihəsini Maliyyə Nazirliyinə təqdim edib. Nazirlik tərəfindən həmin layihələr məqbul sayıldıqdan sonra isə onların hesablarına vəsait köçürüləcək. Hesab edirəm ki, 50 bələdiyyənin təqdim etdiyi layihələr keçərli olacaq".

YENİ MÜSAVAT
N 30 (7200) 8 fevral 2019

# Yeni "beyin mərkəzi" yaradılır- politoloqun şərhi

## "Regionu və dünyanı araşdırmalı, strategiyamızı ona uyğun qurmalıyıq"

**Prezident İlham Əliyev fevralın 6-da Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin yaradılması haqqında fərman imzalayıb.**

Fərmana əsasən müəyyən edilir ki, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi dünyada və regionda baş verən prosesləri təhlil edən, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin müxtəlif aspektləri, beynəlxalq münasibətlər və təhlükəsizlik məsələləri ilə bağlı fundamental araşdırmalar aparan, bu məsələlərə dair ölkəmizin mövqeyinin beynəlxalq ictimai, siyasi və akademik dairələrə çatdırılmasında iştirak edən, Azərbaycanın dövlət orqanlarını həyata keçirdiyi elmi-analitik təhlilin nəticələri ilə təmin edən publik hüquqi şəxsdir.

Qeyd edək ki, yaradılan yeni qurum ("beyin mərkəzi" də demək olar-C.A.) daha çox ötən ayın ortalarında ləğv edilən Strateji Araşdırmalar Mərkəzinin funksiyalarını yerinə yetirəcək. Ekspertlər belə bir qurumun yaradılmasına ehtiyacın olduğunu bildirirlər.

**Politoloq Nəzakət Məmmədova yeni mərkəzin yaradılmasındakı məqsədlərdən danışdı:** "Bu mərkəzin yaradılmasının məqsədi prezidentin müvafiq fərmanında dəqiq izah olunub. Belə bir "beyin mərkəzinin" yaradılması çox doğru bir qərardır. Müasir dünyada çox şeyi ağıl, intellekt, texnologiyalardan düzgün istifadə həll edir. Böyük ərazisi, ordusu, nüvə silahı olan dövlətlərlə Yaponiya kimi kiçik, amma elmi-texnoloji cəhətdən üstün, yenə də İsrail kimi kiçik, amma strategiyasını ağılla quran dövlətlər eyni sırada dayanır. Hazırkı dünyada şərait çox mürəkkəbdir. Yeni dünya nizamının qurulması prosesinə təkan verilib, bir çox dövlətlər və xalqlar yaşamaq uğrunda mübarizə aparırlar. Belə bir şəraitdə vəziyyətdən o xalqlar, dövlətlər uğurla çıxacaq ki, onlar şəraiti düzgün qiymətləndirib ağıllı, məntiqli çıxış yolu tapsınlar. Azərbaycan özü də mürəkkəb geosiyasi mövqeyi olan, dünya güclərinin diqqət mərkəzində olan dövlətdir. Dünya siyasətində ən fəal, dinamik siyasət yeridən ölkədir. Bu baxımdan bizdə belə bir mərkəzin olması normaldır, dünyanın bir sıra ölkələrində belə qurumlar var, hətta onların sayı onlarla, yüzlərlədir. Bizdə ayrı-ayrı nazirliklərin, komitələrin nəzdində təhlil mərkəzləri var, lakin onların fəaliyyətinin nə dərəcədə səmərəli olduğunu deyə bilmərəm. Çünki bir çoxlarının fəaliyyətləri barədə məlumatsızam. Bəziləri təhlil yox, statistika ilə məşğul olurlarsa, internetdən məlumatları köçürüb təhlil kimi qələmə verirlərsə, bu, yolverilməzdir. Təhlil elə bir sahədir ki, burada təsadüfi adamlara yer olmamalıdır. Təhlilçi həmin sahədə müvafiq ali təhsili olan, yaxud keyfiyyətli baza biliyi olan, ağıllı, vəziyyəti düzgün qiymətləndirməyi bacaran, təhlil olunan situasiyanın bir neçə ağlabatan inkişaf ssenarisini, versiyasını irəli sürüb onu tutarlı şəkildə əsaslandırmaq qabiliyyəti olan xüsusi istedadı olan şəxslər olmalıdır. Biz Ermənistanla müharibə şəraitindəyik, ona qarşı təkcə döyüş meydanında yox, həm də ağıl, zəka, intellekt meydanında savaş halındayıq. Belə bir şəraitdə bütün aidiyyəti dövlət orqanlarının təhlil strukturları bu işdə yaxından, vicdanla iştirak etməli, dövlət başçısına dəstək verməlidir. Azərbaycanın ən böyük siyasi analitiki elə İlham Əliyevdir. Çünki regional və beynəlxalq siyasət barədə onun qədər məlumatlı, onun qədər dərin təhlil edən ikinci şəxs yoxdur. O, Ali Baş Komandan, baş diplomat, neft strategiyasını həyata keçirən, bu proseslərin bilavasitə önündə gedən şəxsdir. İlham Əliyev nəinki Azərbaycanın, hətta dünyanın ən savadlı prezidentlərindən biridir, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu, müəllimi olub, SSRİ XİN-də çalışıb. Dünyada heç də bütün prezidentlər savadlı olmur. Məsələn, Amerikada, Rusiyada bir çox prezidentlər olub ki, beynəlxalq siyasətdən qətiyyən anlayışları olmayıb. Onlara müşavirləri məsləhət veriblər. İlham Əliyevin isə buna ehtiyacı yoxdur, çünki o, düzgün qərarlar qəbul edən siyasi strateqdir. Heç bir mərkəz də prezidentə onun bildiyindən daha artıq tövsiyə verə bilməyəcək. Ancaq qeyd etdiyimiz kimi, dünyada araşdırma, tədqiqat mərkəzləri var və işlərini düzgün, səmərəli qura bilsələr çox lazımlı qurumlardır. ABŞ SSRİ kimi qüdrətli rəqibini sovetşünasların, elmi-tədqiqat institutlarının hesabına çökdürdü. Ermənistanda Azərbaycanı, Türkiyəni araşdıran mərkəzlər var. Onlar düşmən hesab etdikləri dövlətləri daha yaxşı öyrənirlər ki, onun zəif yerlərini öyrənib o cür vursunlar. Biz də eyni cür etməliyik. Regionu və dünyanı araşdırmalı, strategiyamızı ona uyğun qurmalıyıq".



❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Avropa İttifaqı ilə Bakıda mühüm müzakirələr

## Ekspert: "Artıq yekun mərhələdəyik, tərəfdaşlıq sazişi hazır olmaq üzrədir"

**5-6 fevral tarixlərində Bakıda Avropa İttifaqı (Aİ)-Azərbaycan Ədliyyə, Azadlıq və Təhlükəsizlik, İnsan hüquqları və Demokratiya məsələləri üzrə Alt-Komitəsinin 7-ci iclası keçirilib. "Trend" ə Xarici İşlər Nazirliyindən verilən məlumata əsasən, iclasa Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev, Aİ tərəfindən isə Avropa Xarici Fəaliyyət Xidmətinin Şərq Tərəfdaşlığı ölkələri ilə ikitərəfli münasibətlər şöbəsinin müdiri Riçard Tibbels həmsədrlik ediblər.**



Riçard Tibbels

Alt-Komitənin iclası qarşılıqlı əhəmiyyət kəsb edən sahələr üzrə məhsuldar danışıqların aparılmasına imkan yaradan açıq və konstruktiv zəmində baş tutub.

İclasın birinci günü tərəflər arasında ədliyyə, azadlıq və təhlükəsizlik sahəsində bir sıra qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən qanunun aliliyi, məhkəmə hakimiyyəti və ədliyyə sahəsində əməkdaşlıq; miqrasiya, sığınacaq və sərhəd idarəçiliyi, habelə mütəşəkkil cinayətkarlıq və digər qanunsuz fəaliyyət növləri ilə mübarizə mövzuları ətrafında geniş fikir mübadiləsi aparılıb. Növbəti gün isə insan hüquqları və demokratiya sahəsində mülki, iqtisadi, siyasi və sosial hüquqlar; insan hüquqlarının müdafiəsi üzrə milli çərçivə, eləcə də insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq forumlarda əməkdaşlıq məsələləri ətrafında müzakirələr aparılıb.

İclasın yekununda bundan öncəki görüşlərin nəticələrini və gələcək əməkdaşlıq proqnozlarını əks etdirən əməli nəticələr sənədi qəbul edilib.

İclasda Azərbaycanın 26 dövlət qurumundan nümayəndələr, Aİ tərəfindən isə Avropa Xarici Fəaliyyət Xidmətinin nümayəndələri ilə yanaşı, Avropa Komissiyasının Genişlənmə Danışıqları Baş Direktorluğu, Miqrasiya və Daxili işlər üzrə Baş Direktorluğu, Ədliyyə və İstehlakçılar üzrə Baş Direktorluğunun nümayəndələri, eləcə də Aİ-nin Azərbaycandakı Nümayəndəliyi və Aİ üzv ölkələrinin Bakıdakı diplomatik missiyalarının nümayəndələri iştirak ediblər.

Bəs bu iclası Aİ ilə tərəfdaşlıq sazişi imzalamaq istiqamətində aparılan işlərin tərkib hissəsi saymaq olarmı? Bu tədbir sazişin imzalanmasına bir addım da yaxınlaşdırdımı?

**Avropa İttifaqı üzrə ekspert Yeganə Hacıyeva "Yeni Müsavat"a şərhində bildirdi ki, Aİ-Azərbaycan münasibətləri tərəflərin razılaşdırdıqları proqram üzrə davam edir. Bu gündəlikdən sapmalar müşahidə olunmur. Azərbaycana qarşı Avropa Şurasında, Avropa Parlamentində və digər təşkilatlarda aparılan kampaniyaların heç birinin bu proqrama təsiri olmadı:** "Bütün səylərə, manеələrə baxmayaraq bu proses uğurla davam edir. Əsas müzakirə olunan strateji məsələlər təhlükəsizlik və ticarət əlaqələridir. Avropa İttifaqı-Azərbaycan münasibətləri tərəflərin razılaşdırdıqları proqram üzrə daha bir mühüm mərhələni arxada qoydu. Keçirilən iclas və müzakirələrin nəticələri birmənalı olaraq Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq sazişinin imzalanmasına hazırlığın daha bir mərhələsi idi. Artıq yekun mərhələdəyik. İclasda ümumi rəylər ondan ibarət olub ki, Azərbaycanın mövqeyi möhkəmlənib. Müzakirəyə çıxarılan sahələr üzrə Azərbaycanın təqdim etdiyi rəylər, hesabatlar kontekstdə müsbət qiymətləndirildi və Avropa standartlarına yaxınlaşan irəliləyişlərin əldə olunduğu bildirildi. Müxalifət qüvvələrinin son aylarda fəaliyyəti, keçirdiyi mitinqlər ölkədə sərbəst toplaşmaq azadlığı, demokratiya sahəsində müsbət durumun göstəricisi kimi qeyd olundu. Regional təhlükəsizliyin əsas zəif bəndi kimi Dağlıq Qarabağ konfliktinin qaldığı da iclasda xüsusi qeyd edildi. Bu iclas, müzakirələr sazişin imzalanması üçün aparılan proseslərdir. Artıq yekun mərhələdir. Strateji tərəfdaşlıq sazişi sənədi tamamilə hazır olmaq üzrədir".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**


Murad Şirəliyev

# Nazir oğlu bankdan istefa verdi, şirkət direktoru oldu

**"Azərbaycan Beynəlxalq Bank" ASC-nin (ABB) İdarə Heyətinin (İH) sədr müavini Murad Şirəliyev işdən çıxıb.**

Unikal.org xəbər verir ki, M.Şirəliyev işdən ayrılmaqla bağlı ərizə yazıb. O, "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Müşahidə Şurasının 2018-ci il dekabrın 25-də keçirilən iclasında bu qərarını açıqlayıb.

Şuranın həmin iclasında 2018-ci il üzrə maliyyə göstəricilərinə baxılıb, 2019-cu il üzrə büdcə layihəsi müzakirə edilib və şuranın səlahiyyətlərinə aid olan bir sıra kredit müraciətlərinə dair qərarlar verilib.

İclasda bankın baş direktoru Vasif Əhmədov İdarə Heyətinə üzv seçilərək İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilib.

Qeyd edək ki, səhiyyə naziri Oqtay Şirəliyevin oğlu olan Murad Şirəliyev 2015-ci ilin iyul ayından 2018-ci ilin dekabr ayına qədər ABB-nin İH-nin sədr müavini olub. Onun Almaniya şirkəti olan "Solaris GmbH"də direktor vəzifəsinə təyinat aldığı bildirilir.

YENİ MÜSAVAT
N 30 (7200) 8 fevral 2019

**ABŞ Senatı yanvarın 3-də Erl Litsenberqerin Azərbaycandakı səfiri postuna namizədliyini təsdiqləsə də, yeni səfir hələ də Bakıya gəlməyib. Yada salaq ki, ABŞ-ın Azərbaycandakı sabiq səfiri Robert Sekuta artıq 10 aydır Bakını tərk edib. Səfir Robert Sekuta Azərbaycanda üç ildən çox, Dövlət Departamentində isə uzun müddət çalışdıqdan sonra Bakıdakı vəzifəsini mart ayının sonunda bitirməyə və daha sonra diplomatik xidmətini başa vuraraq təqaüdə çıxmağa qərar verib.**




# 10 ay sonra yeni ABŞ səfiri Bakıya gəlir- ləngimənin səbəbi şatdaundur

## Erl Litsenberqer səfir səlahiyyətlərinin icrasına etimadnaməsini Azərbaycan prezidenti İlham Əliyevə təqdim etdikdən sonra başlayacaq




İ.Litsenberqer ötən ilin yanvarında Dövlət Departamentinin hərbi-siyasi məsələlər üzrə Bürosunun baş müşaviri təyin edilib. Həmin vəzifədə Litsenberqer Büronun idarə edilməsinin bütün aspektlərinə rəhbərlik edib. Dövlət katibinin köməkçisinin birinci müavini yerində olmadıqda İrli Litsenberqer onun səlahiyyətlərini icra edib. Litsenberqer uzun müddətdir diplomatik xidmətdə işləyir və Nazir Müşaviri (Minister Counselor) ali diplomatik rütbəsinə malikdir.

Litsenberqer bundan əvvəl ABŞ-ın NATO-dakı missiyasının rəhbərinin müavini (2014-2017) olub, Serbiya, Qırğızıstandakı səfirliklərdə işləyib. NATO-nun Əfqanıstandakı baş mülki nümayəndəsinin müavini (2013-2014) olub. Habelə ABŞ-ın Avropa İttifaqındakı missiyasında, Qazaxıstan, Bolqarıstan və Əlcəzairdəki səfirliklərdə, Fransanın Marsel şəhərindəki ABŞ konsulluğunda işləyib. Dövlət katibinin müavininin Dəftərxanasında, Yaxın Şərq işləri Bürosunda və Hərbi-Siyasi işlər Bürosunda müxtəlif vəzifələr tutub. Fransız, rus, bolqar və serb-xorvat dillərini bilir.

**Litsenberqer bir müddət əvvəl öz çıxışında bəyan edib ki, Birləşmiş Ştatlar qanunun aliliyi, şəffaflıq və insan hüquqlarının qorunması vasitəsilə Azərbaycanla demokratik və açıq iqtisadi prinsiplərin irəliləməsində sıx əməkdaşlığı davam etdirməlidir.** "Bu islahatların həyata keçirilməsi Azərbaycanın marağındadır, çünki bu, uzunmüddətli sabitliyin təminatı, həm də onun vətəndaşlarının potensialı və iqtisadiyyatı üçün vacibdir. Demokratiyalar ancaq o zaman çiçəklənir ki, müstəqil məhkəmə sistemi, qanunun aliliyi, azad atmosfer, enerjili vətəndaş cəmiyyəti, plüralizm, demokratik seçki prosesləri, insan hüquq və azadlıqlarına hörmət edilməsi onları dəstəkləyir. Azərbaycan bu yolla irəlilədikcə ikitərəfli münasibətlər möhkəmlənəcək", - deyə o qeyd edib.

**Litsenberqer deyib ki, səfir postunda ikitərəfli əməkdaşlığın genişlənməsi üçün Amerika firmalarının mövqeyinin möhkəmlənməsinə çalışacaq. O, həmçinin vəd edib ki, qarşılıqlı hörmət əsasında Azərbaycanla bu məsələlərlə bağlı etibarlı dialoqun inkişafı üçün öz təcrübəsindən istifadə edəcək. O, digər prioritet kimi Qarabağ münaqişəsinin həllini göstərib:** "Cənubi Qafqazın təhlükəsizliyi və çiçəklənməsi üçün Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasından böyük prioritet yoxdur. ABŞ ATƏT-in Minsk Qrupunun həmsədri kimi gücdən və güc ilə bağlı təhdidlərdən istifadə etməmək, ərazi bütövlüyü, xalqların bərabər hüquqları və özünütəyin hüququ da daxil olmaqla, BMT nizamnaməsi və Helsinki Yekun Aktı prinsipləri əsasında münaqişənin nizamlanması üzrə dinc, uzunmüddətli danışıqlara nail olunması üçün tərəflərlə işi davam etdirir. Əgər mənim təyinatım dəstəklənərsə, bu məqsədə çatmaq üçün administrasiyanın öhdəliklərini dəstəkləyəcəm".

Xatırladırıq ki, indiyə kimi ABŞ hökumətinin Azərbaycanda 10 səfiri olub.

İlk təyin olunmuş səfir Robert Finn 1992-ci ildə bir neçə ay ərzində bu postu tutub. 1992-ci ilin mart ayında ABŞ-ın Bakıda diplomatik missiyasını o açıb və üç il səfirliyə başçılıq edib. Daha sonra Riçard Mayls 1992-ci ildən 1993-cü ilə kimi Amerikanın Azərbaycandakı səfiri olub.

Digər səfirlər - Riçard Kozlariç (1994-1997), Stenli Eskudero (1997-2000), Ross Uilson (2000-2003), Rino Haniş (2003-2006), Enn Dersi (2006-2009), Metyu Brayza (2011-2012), Riçard Morniqstar (2012 -2014), Robert Sekuta (2015-2018) olub.

"Yeni Müsavat"a daxil olan məlumata görə, bugünlərdə yeni səfir Bakıya gəlir. Onun ləngiməsinin səbəblərindən biri də ABŞ-da şatdaun (büdcə olmaması səbəbindən federal müəssisələrin işinin müvəqqəti ixtisarı) olub. Qeyd edək ki, ABŞ hökumətinin bəzi nazirlikləri - Dövlət Departamenti, Daxili Təhlükəsizlik Nazirliyi, Ədliyyə, Nəqliyyat, Kənd-Təsərrüfatı və digər nazirliklər büdcə çatışmazlığından öz işini dayandırmışdı.

Xatırladaq ki, 2014-cü il iyulun 8-də o zamankı prezident Barak Obamanın Azərbaycandakı səfiri vəzifəsinə təyin etdiyi Robert Sekuta Senatda həmin ilin dekabrında təsdiqlənmişdi. Amma o da Bakıya iki ay sonra - fevral ayında gələ bildi.

Qeyd edək ki, Erl Litsenberqer səfir səlahiyyətlərinin icrasına etimadnaməsini Azərbaycan prezidenti İlham Əliyevə təqdim etdikdən sonra başlayacaq.

❑ **ORXAN, "Yeni Müsavat"**

# İnqilabın 9 ayı - "hamiləlik" nə ilə bitdi?



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Adətən xalqlar ona görə inqilab edir ki, daha yaxşı güzərana qovuşsun, inkişaf yoluna çıxa bilsin. Ermənilər də ötən il eyni məqsədlə ayağa qalxdılar, Qarabağ klanını, xunta rejimini hakimiyyətdən uzaqlaşdırdılar. Bu gün onların çox öyündüyü "məxməri inqilab"ın düz 9 ayı tamamlanır. Bəs nəticə?**

Əvvəla, 9 ay az müddət deyil. 9 ay ana bətnində bir insanın yaranışı, vücud alması üçün gərəkən qiymətli zaman kəsiyidir. Dəniz suyunun dadına baxmaq üçün yetərli sayılan damladan da böyük bir ölçüdür. Yəni nə var, artıq ortadadır. Ermənilərin gözlədiyi iqtisadi möcüzə baş versəydi, verərdi. Möcüzə gözlənilmir, çünki Nikolun böhran əleyhinə sehrli çubuğu yoxdur.

Nəticəyə gəlincə, 9 ayda Ermənistan əhalisinin güzəranında yaxşıya doğru köklü heç bir dəyişiklik, ölkə iqtisadiyyatında inkişaf qeydə alınmayıb. Vəd olunan böyük xarici sərmayələr, çoxsaylı iş yerləri də hələ ki gözə dəymir. Həmçinin ölkədən əmək qabiliyyətli insanların kütləvi köçü səngiməyib. Qarabağ problemi, blokada rejimi davam edir. Yalnız korrupsiya ilə mübarizədə yeni baş nazir Nikol Paşinyan müəyyən uğurlara imza atıb, keçmiş cinayətkar rejimin bəzi odioz simalarının məsuliyyətə cəlb edib, o sırada eks-prezident Robert Köçəryanı Moskvanın etirazlarına rəğmən, həbsə atıb.

Ancaq Nikol Paşinyan tərəfdarı olan bir erməni siyasi şərhçisinin yazdığı kimi, xalqa daha tamaşa yox, çörək lazımdır, real nəticədən danışmaq zamanıdır. Nəticə üçün isə siyasi-iqtisadi islahatlar, daxili və xarici siyasətin uğurla uzlaşdırılması, bütün bunlar üçünsə 3 əsas şərt lazımdır: 1. Legitimlik. 2. Güclü komanda. 3. Güclü iradə.

1-ci şərt təmin olunub. Paşinyanın legitimliyi heç kəsdə, hətta Moskvada belə, şübhə doğurmur, hərçənd son vaxtlar reytinqin azalması meyli müşahidə edilməkdədir. Güclü komanda məsələsi isə həll olunmayıb. Bu xüsusda Nikolu indi ona rəğbəti olanlar da haqqına tənqid edirlər.

Bundan da vacibi isə əlbəttə ki, siyasi iradə, qətiyyətdir. Siyasi iradə olacaqsa, onda güclü komanda da, uğurlu daxili siyasət və onun davamı sayılan xarici siyasət də olacaq. Demək, Nikol daxili dayaqlarını möhkəmlədə biləcək. Əlləxüsus, problemlərin problemi sayılan Dağlıq Qarabağ məsələsində Paşinyanın iradə göstərməsi lazım gələcək.

Paşinyan isə Ermənistanı hansı istiqamətə aparacağını hələ də dəqiqləşdirməyib. Əlbəttə, öz xalqını o, yaxşı günə çıxarmaq istəyir. Ancaq istək ayrı, reallıqlar - ayrı. Nikolun əsas problemi də arzu ilə gerçək arasında fərqi görə bilməməkdir. Görsəydi, anlayardı ki, bir yandan ABŞ başda olmaqla Qərbin, NATO-nun, başqa yandan isə Rusiya və İranın dost-müttəfiqi olmaq mümkünsüzdür. Paşinyan isə eyni vaxtda Qərbdən maliyyə dəstəyi, Rusiya və İrandan isə hərbi-təhlükəsizlik və siyasi dəstək, zəmanət umur.

İnqilabçı baş nazirin Qarabağ siyasətində də nala-mıxa vurması özünü açıq göstərir. Gah o, dünyaya "sülh partiyası"nın rəhbəri kimi özünü göstərir, gah da oğlunu Azərbaycanın işğal altındakı ərazilərinə hərbi xidmətə göndərməklə sələfləri - keçmiş xunta rejiminin başçıları Sərkisyan-Köçəryan kimi hərəkət edir və "müharibə partiyası"nın təmsilçisi kimi danışır. Gah İlham Əliyevlə saatlarla Qarabağı müzakirə edir, gah da iddia edir ki, "mən Qarabağ ermənilərinin əvəzinə danışa bilmərəm, separatçılarla Bakı özü anlaşmalıdır".

Amma baxırsan ki, təmas xəttində öldürülən erməni əsgərlərinin mütləq əksəriyyəti Ermənistan vətəndaşıdır, gəlmələrdir. Yaxşı, bu, sırf Bakı ilə Qarabağdakıların problemidirsə, onda Ermənistan hərbçilərinin, Paşinyanın oğlunun Dağlıq Qarabağda, yad dövlətin ərazisində nə ölümü? Bir ovuc Qarabağ ermənilərinin özlərinə qalsaydı, onlar çoxdan Azərbaycan konstitusiyasını qəbul etmişdilər - ya xoşluqla, ya da zorluqla...

Belə getsə, bu "saqqallı uşağa" bəzi gerçəklikləri başa salmaq üçün Azərbaycan əsgərinin müdaxiləsi lazım gələcək. Ümid edək ki, buna lüzum olmayacaq. Hər necə olmasa, əli azərbaycanlıların qanına bulaşmayan Paşinyan öz xalqı üçün unikal tarixi şansı düzgün hesablayıb İlham Əliyevlə anlaşmağa özündə təpər tapa bilər. Əks halda, erməniləri yeni müsibətlər və daha təhqiramiz rus boyunduruğu gözləyir...

YENİ MÜSAVAT
N 30 (7200) 8 fevral 2019



# İtburnu qanunu

Zamin HACI
zaminhaci@gmail.com

**Keçmiş baş nazirimiz Artur müəllim adından fərqli olaraq xalqın içindən çıxmışdı, ona görə camaatın dərd-sərini, yemək-içməyini, yatıb-durmağını yaxşı anlayırdı. Görürdün inflyasiya oldu, deyirdi qışda təzə xiyar yeyirsiniz, qiymətlər qalxır, zəhmət çəkin turşu xiyar yeyin. Deyirdi mən özüm həmişə qışda turşu yeyirəm (bununla həm də bizə turşu yeməyin sağlamlığa ziyanı haqda çərənləyən bəzi başabəla alimlərin ağzından vururdu - ziyan idisə, ona niyə eləmirdi?) Ancaq təzə baş nazirimiz Novruz müəllim də adından fərqli olaraq xalqımıza yaxın sayılmaz. Fransız dili, beynəlxalq əlaqələr üzrə çalışıb. Hətta Vaqif Mustafayevin "Fransız" kinosunda Fransa səfiri rolunu oynayıb. Bir növ, "obrazovonski" tipdir. Firənglərdən bizə haçan xeyir gəlib? Odur, Fransa prezidenti Makrona ermənilər təzəlikcə düdük bağışladılar, indi bir müddət onu çalıb baş-beynimizi aparacaqdır.**

Elə Novruz müəllimin idarəsinin - Nazirlər Kabinetinin son qərarlarından birinə məhz bu xalqa yabançılıq kontekstindən yanaşdıq. Qərar camaatın meşədən yabanı bitkiləri, cır meyvəni-zadı toplamasına aid verilmişdi. Deyir əgər sən meşədən bir armud qoparsan bunun hesabını ayıya... üzr istəyirəm, hökumətə verməlisən. Vergi, rüsum, nə bilim nə... Göbələk yığasan, şabalıd qırasan, əzgil toplayasan, bunlar heç olmazmış. Doğrusu, NK bu qərarı hansı ağılla vermişdi, meşələrə, heyvanların ovlanmasına nəzarət edə bilməyən idarənin torbasında itburnu aparan kəndlini tutub necə cərimə edəcəyi maraqlı idi. Ancaq rəhbərlik qərarı ləğv elədi, icra üsulundan xəbərsiz qaldıq. Bizdə belə administrativ əsrarlar çoxdur, misal üçün, konstitusiyada hakimiyyətin mənbəyinin xalq olması yazılıbdır, lakin xalq bunu necə eləməlidir, eləsə nə alınar - heç kim bilmir. Meşədən əzgil yığan adamın cəriməlònməsi bələdiyyəyə özü seçilən adamın fəaliyyəti ilə təxminən eyni reaksiya doğurmalıdır. Bir az qəliz cümlə oldu, ancaq oxucularıma güvənirəm, onlar məni yaxşı anlayır.

Seçki demişkən, Mərkəzi Seçki Komissiyası seçici siyahılarını dəqiqləşdirdiyini açıqlayıbdır. İlin axırına qədər bələdiyyə seçkisi olmalıdır, deyəsən, ona görədir. Ya da qanuna görə hər ilin başında seçici siyahısı dəqiqləşməlidir - dəqiq bilmirəm hansı səbəbdən edirlər. Bütün hallarda Məzahir müəllimi qınayırıq. Nəyi dəqiqləşdirirsən? Buna ehtiyac yoxdur. Bizdə seçici siyahısı 26 ildir dəyişmir ki. Seçən kimdir, seçilən kimdir, hamı gözəl bilir. Əksinə, bu cür dəqiqləşmə olanda xaricdəki "Firidun haus" təşkilatı kimi xaricdən maliyyələşən qara qüvvələr fəallaşır, ölkəmizə mız qoyurlar. Deyirlər orada insan haqları pozulur, filankəsi siyahıya salmadılar, behmənkəsi tutdular, nə bilim sizin it bizim örkəni apardı... Bu baxımdan, yaxşı olardı rəhbərlik seçki-siyahı oyunlarını itburnu qanunu kimi ləğv edəydi. Vallah, səmimi sözümdür. Büdcəyə də artıq yük düşür. Onsuz biz bilirik Rusiyadan keçən il gələn 900 min turistin neçəsi azərbaycanlıdır. O cümlədən küçədə o qədər "Quççi" geyinib gəzən qaqaşlar var, bunları "Ledi Şarm"dan yox, "Cümhuriyyət" supermarketindən alsalar nə xeyrimiz olacaq? Əsas odur müstəqilliyimiz qorunsun. Adını nə qoyursan qoy.

Sözgəlişi, dünən xəbər başlığında KXDR-i çaşıb KXCP kimi oxumuşam. İstərdim hörmətli oxucularım bunu da bilsin - zəruri informasiyadır. Demək, xəbərdə Amerikanın müdiri Trampın Şimali Koreyanın kolxoz sədri Kim müəllimlə hansısa görüşlərindən bəhs olunurdu, başlıq isə belə idi: "ABŞ-KXDR arasında növbəti sammit filan vaxt olacaq". İnandığınız haqqı, elə bildim bizim Klassik Xalq Cəbhəsi Partiyamızın sədri Mirmahmud ağa Trampla görüşəcək. Belə göz aldatmaları olur.

Mən aldandım, siz gözünüzdən muğayat olun. Meşəyə də çalışın getməyin - o qədər çaqqal var...

---

**Sırağagün Humanitar Tədqiqatlar İctimai Birliyinin təşkilatçılığı ilə Beynəlxalq Mətbuat Mərkəzində "Xalqları sülhə hazırlama: ötən dövrün təcrübəsi və yeni çağırışlar" adlı dəyirmi masa təşkil olunub.**

# "Xalqları sülhə hazırlamaq" prosesi niyə Bakıdan başlayıb?

## Əvəz Həsənov: "Sülhə ilk növbədə hakimiyyətlər hazır olmalıdır"


Əvəz Həsənov

HTİB sədri, konfliktoloq Əvəz Həsənov tədbir zamanı qeyd edib ki, 2019-cu il yanvarın 16-da Fransanın paytaxtı Paris şəhərində ATƏT-in Minsk Qrupu çərçivəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında keçirilən görüş zamanı hər iki tərəfin əhalisinin sülhə hazırlanması yolları barədə bəyanat verilmişdi. Qəbul olunan bəyanatda xalqların sülhə hazırlanması ilə regionda təhlükəsizliyin və dayanıqlı regional inkişafın əldə olunmasına ciddi işarə olmuşdu.

Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu isə xalqları sülhə hazırlamaq yolunda daxili dialoqun aparılmasının vacibliyindən danışıb. Vətəndaş cəmiyyəti təmsilçilərinin sülhyaratma istiqamətində fəaliyyətini koordinasiya etməsinə ehtiyacın olduğunu qeyd edib.

"3-cü baxış" Analitik İnformasiya Mərkəzinin direktoru Rauf Rəcəbli qeyd edib ki, münaqişənin həll olunmasının yalnız müharibə və sülh yolu olduğunu cəmiyyət yaxşı başa düşür və belə olan halda sülhü daha çox sərfəli variant kimi qəbul edir.

Tədbir zamanı vətəndaş cəmiyyəti nümayəndələri indiyə kimi Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti təmsilçilərinin əldə etdikləri təcrübəni bölüşüblər.

Mətbuat Şurasının üzvü Azər Həsrət isə bildirib ki, xarici işlər nazirlərinin görüşündən sonra cəmiyyətdə sülhün əldə olunmasının vacibliyinə diqqət artmaqdadır. Sülhün hər iki cəmiyyət üçün vacib olduğu izah olunmalıdır. Hər iki cəmiyyətdə aqressiv münasibətlərin aradan qaldırılması üçün addımlar atılmalıdır.

Milli QHT Forumunun prezidenti Rauf Zeyni isə deyib ki, Azərbaycan tərəfinin daha çox itkilər verdiyini, 1 milyona yaxın vətəndaşın qaçqın və məcburi köçkünə olduğunu nəzərə alsaq, ölkə əhalisinə sülhün izah olunması asan olmayacaq. İşğal faktının davam etdirilməsi vətəndaşlarımızın sülhə olan inamını azaldır.

Azərbaycan-Ermənistan Vətəndaş Sülh Platformasının koordinatoru Dilarə Əfəndiyeva isə platforma barəsində məlumat verib. Hər iki xalqın nümayəndələri arasında münasibətlərin normallaşmasına imkan verən sülh platformasının prosesə verə biləcəyi töhfə barədə danışıb.

Tədbirdə Beynəlxalq Böhran Qrupunun təhlilçisi Zaur Şiriyev, Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin təmsilçisi Johanna Ketola vətəndaş cəmiyyətinin sülhyaratma prosesində rolunun düzgün dəyərləndirilməsi və onların imkanlarından istifadə olunmasının əhəmiyyətini vurğulayıblar.

Müzakirə iştirakçıları xalqların sülhə hazırlanması ilə bağlı vətəndaş cəmiyyəti qarşısında yeni vəzifələrin durduğunu qeyd ediblər.

Bəs xalqları sülhə necə hazırlamalı? Sülhə ilk növbədə hakimiyyətlər, əsasən də Ermənistan iqtidarı hazır olmalı deyilmi? Erməni iqtidarı son günlər sülhə hazır olmadığını göstərən açıqlamalar verir. Belə bir vəziyyətdə bizim burada sülhə hazırlaşmağımızın təsiri və məntiqi varmı?

**Əvəz Həsənov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, xalqları sülhə hazırlamağın yolları çox sadədir. Bundan ötrü tərəflər razılığa gəlməlidirlər ki, sülhün çərçivəsi necə olacaq:** "Sülhün çərçivəsi necə müəyyən olunduqdan sonra xalqlara həmin razılaşmanın mesajı verilir və bildirilir ki, bu çərçivədə Azərbaycan və Ermənistan tərəfi razılığa gələcək. Bundan sonra demək olar ki, xalqlar arasındakı ədavəti aradan qaldırmaq üçün informasiya müharibəsi dayandırılır, tərəflər arasında münasibətlər gərginlikdən yumşaq mərhələyə keçir, televiziyalarda, mediada azərbaycanlılara və ermənilərə qarşı olan nifrət aradan qaldırılır, xalqlar arasında hələ gediş-gəliş çətin olsa da ən azı virtual aləmdə və ya telefon vasitəsilə münasibətlərin yaradılmasına hökumətlər mane törətmir".

**Ə.Həsənov hesab edir ki, sülhə ilk növbədə hakimiyyətlər hazır olmalıdır:** "Hakimiyyətlər faktiki olaraq anonsu verəndən sonra ki biz sülh müqaviləsini imzalayırıq, bundan sonra xalqları barışığa hazırlamaq lazımdır. Burada Ermənistanın üzərinə daha çox yük düşür. Çünki Ermənistanın iqtisadi cəhətdən zəifləməsinin səbəblərindən biri də ondan ibarətdir ki, Azərbaycanla münasibətləri gərgindir, Azərbaycanla arasında sülh yoxdur. Əgər münasibətlər olsaydı, sülh olsaydı, ola bilsin Ermənistan indi fərqli dövlət olardı. Ona görə də Ermənistan iqtidarı sülhün əldə olunmasına bizdən daha çox maraqlı və razı olmalıdır. Çünki biz müharibəni başlaya və bu konfliktin qaydalarını dəyişə də bilərik. Ona görə də ilk növbədə Ermənistana sülhə nail olmaq lazımdır".

**Ekspertin sözlərinə görə, Nikol Paşinyanın son addımları onu göstərir ki, o, razılaşdırılmış şərtlərlə hərəkət etməyə hazırdır:** "Serj Sərkisyan hakimiyyətindən fərqli olaraq indi orada yumşaq hakimiyyət var və onlar da Azərbaycanla münasibətlərin normallaşmasında maraqlıdırlar. Onlar ola bilsin ki, indi hazır deyillər danışıqlar prosesini aparmağa, ancaq xalqları sülhə hazırlamağa hazırdırlar. Çünki xalqı sülhə hazırlamaq onlara birinci növbədə sərf edir. Onlar hesab edir ki, belə bir proses Azərbaycanın hücum taktikasının qarşısını ala bilər. Ancaq məncə, bu, yanlış düşüncədir, xalqları sülhə hazırlamaq eyni zamanda güzəştlərə gedilməsinin bir şərtidir. İndiyə kimi Azərbaycanda belə bir təsəvvür var idi ki, biz geri çəkilmirik, heç bir yumşalma olmur və Ermənistanı sülhə təhrik eləmək lazımdır. Lakin göründü ki, biz nə qədər sərt mövqedə qalırıqsa, Ermənistan da mövqeyini o qədər sərtləşdirir. Ona görə də əgər biz torpaqlarımızı geri qaytarmaq istəyiriksə, Ermənistan cəmiyyətində bu istəyi oyatmaq üçün göstərməliyik ki, biz sülhə hazırıq. Bundan sonra Qərb, ATƏT-in Minsk Qrupu həmsədrləri Ermənistana indiki vəziyyətində qalmağa imkan verməyəcək. Onlar maraqlı olacaqlar ki, Ermənistan müəyyən şərtlərlə torpaqların azad olunmasına razı olsun. İlk növbədə xalq razı olmalıdır ki, Ermənistan hakimiyyətinin əlində arqument qalmasın. Əgər biz xalqlarla işləməsək və Ermənistan cəmiyyətini gərginlikdən çıxarmasaq, onda mən inanmıram ki, Ermənistan xalqı bizimlə sülhə razı olsun".

**Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

# Makronun qərarı Azərbaycanda sərt etiraz doğurdu - deputat ona məktub yazacaq

## Fəzail Ağamalı: "Fransa həmsədr kimi hər zaman Ermənistanın yanındadır"

## Fazil Mustafa: "Bu dövlətin beynəlxalq hüquqa azca sayğısı varsa, həmsədrlikdən könüllü getməlidir"

**"Həm Türkiyə, həm də Azərbaycan rəsmi şəkildə Fransa prezidentinin qərarına mövqeyini ifadə etməlidir". Deputat Fəzail Ağamalı bu fikirləri Fransa prezidenti Emmanuel Makronun 24 apreli qondarma erməni soyqırımını anma günü elan etməsini "Yeni Müsavat"a şərh edərkən bildirdi.**



Deputat Fransa liderinə demək üçün Azərbaycanın kifayət qədər arqumenlətinin olduğunu da söylədi: "Azərbaycan məsələni həm də bu baxımdan arqumentləşdirə bilər ki, soyqırım mifini ortalığa atan Ermənistan və onun silahlı qüvvələri Xocalı soyqırımını törədib, eyni zamanda Azərbaycanın 20 faiz torpaqlarını işğal edib, bu günə qədər də işğal davam etməkdədir. Həm də burada təkcə Xocalı soyqırımı nəticəsində qətlə yetirilən həmvətənlərimizin sayı deyil, bütövlükdə Qarabağın digər kəndlərində qətlə yetirilən, Xocalı qədər soyqırıma məruz qalan yaşayış məntəqələri də qeyd edilməklə onların əhalisinin soyqırıma məruz qalması, 1 milyondan artıq məcburi köçkünlərin ata-baba yurdlarından didərgin salınması Makronun nəzərinə çatdırılmalıdır. Həmçinin 250 minə yaxın soydaşımızın tarixi torpaqlardan, indiki Ermənistan deyilən ərazilərimizdən vəhşicəsinə çıxarılması faktlarını da önə çəkməklə Fransanın diqqətinə bir daha çatdırılmalıdır ki, soyqırıma məruz qalan ölkə, xalq heç zaman soyqırım törətməz. Ən azı, bunun ağrılarını çəkən bir xalq kimi, başqa millətə, başqa xalqa bu soyqırımı tətbiq edə bilməz. Deməli, ermənilər heç zaman soyqırıma məruz qalmayıb".

**F.Ağamalının qənaəti budur ki, Fransanın indiki şərtlər daxilində Qarabağla bağlı həmsədrlik etməsinə də lüzum qalmır:** "Çox təəssüf edirik ki, Ermənistanı bu günə qədər himayə edən Fransa hələ də Minsk Qrupunun həmsədri kimi öz üzərinə düşən missiyanı yerinə yetirmək istəmir, əksinə, hər zaman Ermənistanın yanındadır. Bu və buna bənzər arqumentlərlə, faktlarla Azərbaycanın Xarici İşlər Nazirliyi, eyni zamanda Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması və parlament bununla bağlı mövqeyini ifadə etməlidir".

**Deputat qeyd etdi ki, Milli Məclisin 12 fevral iclasında mümkün olarsa, bu barədə məsələ qaldıracaq:** "Fikrimcə, Milli Məclis bununla bağlı Fransa parlamentinə etiraz məktubu göndərməlidir".

**F.Ağamalı xüsusilə də Xocalı soyqırımının 27-ci ildönümünün tamam olduğu ayda Makronun belə bir addım atmasını qəbulolunmaz saydı. O da təsdiqlədi ki, əslində Fransa prezidenti Xocalı soyqırımını anma ilə bağlı qərar verməli idi, baş verməyən hadisəyə yas tutmalı deyildi:** "Biz bunu da qeyd etməliyik ki, Fransa 20-ci əsrin ən böyük faciələrindən biri hesab edilən, hələ də qanı qurumamış, Ermənistan tərəfindən törədilmiş Xocalı soyqırımını tanımalıdır. Rəsmi Paris özündə iradə tapıb nəhayət ki, Xocalı soyqırımını tanımalıdır. Biz belə bir məktubla Fransanın rəsmi dairələrinə, parlamentinə, ictimaiyyətinə müraciət etməliyik. Həmçinin Türkiyə də eyni şəkildə hərəkətə keçməlidir".

**Maraqlıdır, indi Ermənistan adlandırılan, əslində isə tarixi Azərbaycan torpaqlarından didərgin düşənlərin bir nümayəndəsi kimi, F.Ağamalı Makrona açıq məktubla müraciət etmək niyyətindədirmi?**

**F.Ağamalı:** "Bəli, azərbaycanlılar dörd dəfə - 1905-1907-ci, 1918-20-ci, 1948-53-cü illərdə və nəhayət, 1988-89-cu illərdə Ermənistandan kütləvi deportasiya olunublar. 1948-53-cü illəri çıxmaqla, bu hadisələrin üçü qanlı faciələrlə, qətllərlə, vandalizmlə həyata keçirilib. Lakin 48-53-cü illərdə də soydaşlarımız ilan mələyən çöllərə köçürüldüklərinə görə ən müxtəlif xəstəliklərdən kütləvi şəkildə qırılıb, bu da soyqırımın bir formasıdır. Bütün bunlar Ermənistanın türk soyuna qarşı məkrli şəkildə həyata keçirdiyi vandalizm aktlarıdır. Təbii ki, bunlar hamısı həmin arayışlarda ifadə olunmalı və göndərilməlidir. İndi siz yaxşı bir ideya verdiniz. Bəli, mən özüm də millət vəkili olaraq o məktubu hazırlayıb göndərə bilərəm, tamamilə doğru deyirsiniz. Yəqin ki, mən bunun üzərində işləyəcəyəm".

**Deputat, BQB başqanı Fazil Mustafa isə "Yeni Müsavat"a dedi ki, Fransa prezidentinin bu anormal hərəkəti daxili situasiyada düşdüyü durumdan xilas variantlarından biri kimi düşünülüb:** "Lakin etirazçıları bu populist qərarlar qətiyyən maraqlandırmır. Onlar daxili siyasətin dəyişməsi və Makronun istefası ilə bağlı tələblər irəli sürüblər. Makron öz soyadının arxasına bundan sonra Paşinyan və ya Sərkisyan soyadını da əlavə etsə, daha məntiqli olardı. Çünki o boyda Fransa dövləti öz tarixini bir yana buraxıb ermənilər üçün anım günü təsis edirsə, bunun adı, sadəcə, anormallıqdır. Yaxşı olar ki, bu gündə doyunca ağlasınlar, başlarını, üzlərini cırıb-dağıtsınlar, türk dünyası da bu əbləhliyə gülüb-keçsin".

**Deputat dedi ki, Fransa bizə qarşı da bir erməni dövlətinin təmsilçisi sifəti ilə davranır:** "Onun həmsədrliyi də əslində Ermənistanın həmsədrliyidir. Bu addımla bağlı iradlarımızı mütləq səsləndirməliyik, hətta fikrimcə, Azərbaycan Xarici işlər Nazirliyi belə bir addıma görə Fransaya nota da verməlidir. Həm təklif etməliyik ki, azacıq da olsa, Fransanın beynəlxalq hüquqa sayğısı varsa, həmsədrlikdən könüllü olaraq imtina etsin. Çünki bu cür ikiüzlü siyasətlə ilk növbədə onlar özlərinə hörmətsizlik gətirirlər. Tarixdə belə bir soyqırım olmadığı halda, buna ancaq Fransa kimi törətdiyi soyqırımlarla (Əlcəzair və s. - red.) məşhur olan bir dövlət soyqırım deyə bilər".

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# Bu gün Gürcüstanda heykələ etiraz aksiyasıdır

## Soydaşlarımız cəllad erməninin büstünün götürülməsinə nail olacaqmı; Gürcüstan parlamentinin azərbaycanlı deputatı danışdı

**Bu gün Gürcüstan azərbaycanlıları Tiflisdə parlament binası qarşısında etiraz aksiyası keçirəcəklər. Aksiyanın keçirilməsinə səbəb Axalkalakidə Qarabağ separatçısı olan erməni hərbçi Mixail Avaqyana büst qoyulmasıdır.**

Tiflis meriyası ilə razılaşdırılmış dinc aksiya saat 14:00-a təyin olunub. Aksiya iştirakçıları separatçıya büstün qoyulmasına qəti etirazlarını ifadə etməklə yanaşı, abidənin götürülməsini də tələb edəcəklər.

Aksiyanın tərkibinin daha çox gənclərdən ibarət olacağı gözlənilir. Təşkilatçılar deməkolar ki, gənc tələbələrdir.

**Aksiyanın təşkilatçılarından olan gənc fəal Sevinc Hümbətova "Yeni Müsavat"a bunları dedi:** "Aksiyaya hazırlıqlar qaydasında gedir. Aksiyada iştirak edəcək azərbaycanlıların sayı çox gözlənilir. Nə qədər sayımız çox olsa, o qədər də səsimizi çatdıra bilərik, deyə düşünürük. Biz gənclərə ən böyük dəstək vətəndaşlardan və tələbələrdən gəlir. Məqsədimiz budur ki, hər bir Gürcüstan vətəndaşı olan azərbaycanlı aksiyaya gələrək öz mövqeyini ortaya qoysun. Burada müxalifət və iqtidarda təmsil olunan azərbaycanlılardan heç bir dəstək görmürük. Xüsusilə də bizim deputatlardan. Onlar nədənsə bu işə qarışmırlar. Hər zamankı kimi problemləri səsləndirməkdən çəkinirlər. Əsas şüarlarımız bunlardan ibarətdir:

**"Separatçı Mixeyil Avaqyanin büstü götürülsün!"**

**"Gürcüstan və Azərbaycanın ərazi bütövlüyü müzakirə predmeti deyil!"**

**"Təxribatçılar, əlinizi Gürcüstan-Azərbaycan dostluğundan çəkin!"**

**"Separatçılığa və separatçılara yox!"**

Aksiyanı ancaq gənclər təşkil edib və burada heç bir siyasi məsələdən söhbət gedə bilməz. Dinc aksiyadır və aksiyanın bu şəkildə də keçəcəyi gözlənilir. Bu aksiyanı istər müxalifətə, istərsə də iqtidara bağlamaqları üçün heç bir səbəb yoxdur. Biz gənclər Gürcüstanın tam hüquqlu vətəndaşları olaraq öz mövqeyimizi sərgiləyəcəyik. Məqsədimiz Mixail Avaqyanın büstünün götürülməsidir. Hansı ki, bu büstün qoyulması biz Gürcüstan azərbaycanlılarına qarşı təxribatdan başqa bir şey deyil".



**Hakim "Gürcü Arzusu" Partiyasının azərbaycanlı deputatı Mahir Dərziyev aksiyada iştirak etməyəcək:** "Əvvəlcədən məlum məsələ ilə bağlı mövqeyimizi bəyan etmişik. Gürcüstanın özü separatçılıqdan əziyyət çəkən bir ölkədir. Azərbaycan da eyni taleni yaşayır. Belə bir şəraitdə separatçı birinə abidə qoyulması öncəliklə Gürcüstana qarşı bir xəyanətdir. Hətta belə iddialar var ki, bu şəxs Azərbaycan ərazisində və Gürcüstanın Abxaziya bölgəsində dinc əhaliyə qarşı qətllərdə iştirak edib. Bu məsələnin ətrafında ajiotaj yaratmaq istəyən qüvvələr var. Prezident seçkilərində gürcü müxalifəti ciddi məğlubiyyət aldı və hazırda dağılmış vəziyyətdədirlər. Onlar bu vəziyyətdən istifadə etməyə çalışacaqlar. Rusiyada yaşayan Söyün Sadıqov dərhal belə bir bəyanat verdi ki, iki ay müddətinə abidə götürülməsə, Gürcüstandakı azərbaycanlıların muxtariyyəti elan olunacaq. Onu deyim ki, Söyün Sadıqov Rusiya vətəndaşıdır və orada xüsusi xidmət orqanlarının zabitidir, hətta deyirlər ki, polkovnik rütbəsi də alıb. Putinin müşaviri olan bu şəxs daim rus siyasətinə xidmət edib. Belə bir insan nə Azərbaycanın, nə də Gürcüstanın mənafeyini güdə bilməz. Rusiya Gürcüstanda daim milli zəmində qarşıdurma yaratmağa çalışır. Azərbaycan-Gürcüstan münasibətləri daim dostluğa söykənib. Belə hadisələr münasibətlərə xələl gətirə bilməz. Büst məsələsi ortaya çıxan kimi bəyan etdim ki, partiyada və parlamentdə bu məsələ ilə bağlı müzakirə aparacam. Müzakirələr nəticəsində yetkin bir rəy yarandı ki, bu böyük bir anlaşılmazlıqdır. İstənilən halda yolverilməz bir haldır. Çalışmaq lazımdır ki, gələcəkdə bu cür hallar bir daha təkrar olunmasın. Bu aksiyaya gəldikdə isə deyə bilərəm ki, Gürcüstanda insanların sərbəst toplaşmaq hüquqi konstitusiya ilə təsbit olunub. Ölkə vətəndaşları bu hüquqdan tam şəkildə yararlanırlar. Demək olar parlament və digər dövlət orqanlarının qarşısında aksiyalar keçirilir. Bizim gənclərimiz də belə bir təşəbbüs irəli sürüblər. Tiflis meriyası mitinqə icazə verib və əslində mahiyyət etibarı ilə icazə üçün müraciət lazım deyil. Məlumatlandırmaq kifayət edir. Əminəm ki, aksiya dinc bir şəraitdə keçəcək. Abidənin qoyulmasına qarşı mən də etirazımı bildirirəm. Çox arzu edərdim ki, emosiyalar olmasın. Müdriklik hər zaman olduğu kimi bizim gənclərə hakim olsun. Ajiotaj nə Azərbaycana, nə də Gürcüstana sərf edir. Ümumi düşmənlərimizin işinə yarayır. Eşitdiyim qədəri ilə sosial şəbəkələrdə ünvanımıza umu-küsülər var. Mövqe bildirməyin çoxsaylı yolları var. Onlardan biri də etiraz aksiyasıdır. Biz 2019-cu ildə yaşayırıq. Bir siyasi ədəb və əxlaq məsələsi var. Mənim mənsub olduğum partiyanı, komandanı çıxıb aşkar şəkildə orada tənqid etməyim nə dərəcədə siyasi əxlaqa, mənəviyyata uyğun ola bilər? Qapalı yerlərdə, bağlı qapılar arxasında dediklərimi çıxıb bəyan edəsi deyiləm ki... Açıq deyim ki, siyasi rəqiblərimiz bu işdən yararlandılar. Qaşınmayan yerdən qan çıxdı".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 30 (7200) 8 fevral 2019

# "Exchange"lərin açılması yenidən gündəmdə-qanun dəyişir

## Ekspert: "Bir valyutadəyişmə məntəqəsinin açılmasına 150 min manata yaxın ilkin vəsait lazımdır"

**Azərbaycanda valyutadəyişmə məntəqələrinin açılışı asanlaşır. Belə ki, "Valyuta tənzimi haqqında" Qanuna dəyişiklik edilməsi təklif olunur. Dəyişiklik valyuta mübadiləsi fəaliyyətinə lisenziyaların verilməsi prosedurunun sadələşdirilməsini nəzərdə tutur.**

Qanunun 13-2.5-ci maddəsinə əsasən, maliyyə bazarlarına nəzarət orqanı valyuta mübadiləsi fəaliyyətinə lisenziya verərkən onu müvafiq icra hakimiyyəti, indiki halda ölkə prezidenti ilə razılaşdırmalı idi. Təklif olunan dəyişikliklə bu məsələ aradan qaldırılır.

Qeyd edək ki, "Valyuta tənzimi haqqında" Qanuna 2017-ci il aprelin 25-də edilmiş dəyişikliyə əsasən, valyuta mübadiləsi fəaliyyəti lisenziyalaşdırılan fəaliyyət növüdür. Bu işlə banklar və milli poçt operatoru ("Azərpoçt" MMC) ilə yanaşı, fiziki şəxslər də məşğul ola bilərlər.

2015-ci ilin dekabrında baş verən manatın ikinci devalvasiyasından sonra ölkədə əhali arasında dollar ajiotajı daha da gücləndi. İnsanlar kütləvi şəkildə valyutadəyişmə məntəqələrinə üz tutaraq dollar almağa çalışdılar.

Nəticədə manata olan tələbat bir qədər də azaldı və yerli valyutanın ucuzlaşması üçün şərait yarandı. Belə olan təqdirdə çıxış yolu kimi ölkədə valyutadəyişmə məntəqələrinin lisenziyaları ləğv edildi və həmin ilin yanvar ayından etibarən bu məntəqələrin fəaliyyəti rəsmən dayandırıldı.

Valyutadəyişmə məntəqələri bağlandıqdan sonra "qara bazar"lar aktivləşdi. Daha sonra hökumət "qara bazar"larla mübarizəyə başladı. 2017-ci ildə manatın sabitləşməsindən və ölkəyə turist axınının başlamasından sonra valyutadəyişmə məntəqələrinin açılması məsələsi də gündəmə gəldi. Həmin ilin aprel ayında Milli Məclisin plenar iclasında "Valyuta tənzimi haqqında" Qanun müzakirə edilərək, qəbul olundu. Deputatlar bildirdilər ki, valyutadəyişmə məntəqələrinin açılması vacibdir. Qanunun qəbulu ilə bu məntəqələrə nəzarət əvvəllər olduğu kimi Mərkəzi Banka deyil, Maliyyə Bazarlarına Nəzarət Palatasına tapşırıldı. Daha sonra isə məntəqələrin açılması prosesi müəmmalı şəkildə uzadıldı. Hələ də valyutadəyişmə məntəqələri açılmayıb.




Rəsmi statistikaya görə, ötən illərlə müqayisədə Bakıya axın edən turistlərin sayında artım var. Lakin bunun müqabilində şəhərdə yalnız Nizami küçəsində olmaqla, bir "exchange" fəaliyyət göstərir. Turistlər gətirdikləri xarici valyutanı yalnız banklarda dəyişə bilirlər. Şənbə və bazar, o cümlədən də bayram günlərində isə banklar işləmir. Ekspertlərə görə, bütün bu səbəblərə görə valyutadəyişmə məntəqələrinin açılmasının qarşısını alan buxovlar aradan qaldırılmalıdır.

Bəs valyutadəyişmə məntəqələrinin açılmasını yalnız yuxarıda göstərilən prosedurmu önləyir?

**"Yeni Müsavat"a danışan iqtisadçı ekspert Natiq Cəfərli bildirib ki, əslində valyutadəyişmə məntəqələrinin açılmasının qarşısını alan səbəblər çoxdur:** "İlk olaraq qeyd edim ki, valyutadəyişmə məntəqələri ilə bağlı qərarın verilməsində problem var idi. Çünki o zaman bu məntəqələrin bağlanması ilə bağlı qərar veriləndə, sona qədər düşünülməmişdi. Devalvasiyalarla əlaqədar panika yaşanırdı. Çox zaman valyutadəyişmə məntəqələrində qiymətlərin tez-tez dəyişməsi, bunun da insanlara yan təsirləri olduğunu deyirdilər. Halbuki bu səbəb yox, nəticə idi. 4 minə yaxın insan bu məntəqələrin bağlanmasına görə işsiz qalıb. Sonradan isə valyutadəyişmə məntəqələrinin açılması ilə əlaqədar qərar verilən zaman qanunda çox sərt şərtlər qoyulmuşdu. Bu, təkcə prezidentin təsdiqi məsələsi deyil. Eləcə də 50 min manatlıq və ya 50 min dollarlıq ilkin depozit şərti də mövcuddur. Həmçinin valyutadəyişmə məntəqələrinin özünün müxtəlif təhlükəsizlik qaydalarına cavab verməsi üçün avadanlıqlarla təchiz edilməsi şərti var. Təqribən bu da 100 min manata başa gəlir. Buradan demək olar ki, bir valyutadəyişmə məntəqəsinin açılmasına 150 min manata yaxın ilkin vəsait lazımdır. Bu hal isə insanlar, əsasən də fiziki şəxslər üçün o qədər də cəlbedici deyil. Kiçik sahibkarlar da bu şərtlərlə işləyə bilmirlər. Çünki depozitə qoyulan 50 min vəsaitin geri çəkilməsi halı da mümkün deyil. Həmişə həmin pul orada zəmanət kimi qalmalıdır ki, valyutadəyişmə məntəqəsi çalışsın. Qaydaların bu hissəsinə də dəyişiklik edilməlidir ki, bu məntəqələrin açılması insanlar üçün cəlbedici olsun. Ən azından şəhərin mərkəzi hissələrində valyutadəyişmə məntəqələrinin sayının çoxalması həm də turistlər üçün daha yaxşı nəticə verə bilər".

Onu da qeyd edək ki, valyutadəyişmə məntəqələrinin açılmasında əsas əngəl kimi göstərilən depozit məsələsi Milli Məclisdə də müzakirə edilib. Müzakirə zamanı ilkin depozit kimi 5 min manatın olması təklif edilirdi. Lakin sonradan qərar qəbul edilən zaman bu rəqəm 50 min manat və ya 50 min dollar müəyyənləşdi.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# "Azərsu"nun qarşısında "20 Yanvar" "faciəsi": xaos, çığır-bağır, tıxac...

## Metronun "20 Yanvar" stansiyasının ətrafı düzəlmir ki, düzəlmir; avtobus dayanacaqları və yolun iki zolağı zəbt edilib, nəqliyyat müfəttişləri tədbir görmür...





**Metronun "20 Yanvar" stansiyasının ətrafı düzəlmir ki, düzəlmir. Yenə tıxac, yenə basabas, hər gün nəqliyyatın xaosu, avtobus dayanacaqlarını və yolun iki zolağını zəbt edən taksilər dəhşətli bir mənzərə yaradıb.**

Söhbət "Azərsu" ASC-nin binasının qarşısındakı dözülməz vəziyyətdən gedir. Metronun digər çıxışlarında nisbətən səliqə-sahman yaradılsa da, Vərəm Dispanserinə doğru çıxışda rüsvayçılıqdır. Nə sərnişinlər dayanacaqda avtobus gözləyə bilir, nə avtobuslar dayanacağa yaxınlaşa...

"Taksi sürücülərinin əlindən cana doymuşuq. Onları buradan niyə uzaqlaşdırmırlar? Arabir yol polisi gəlib "təmizləmə" işi aparır, yarım saat sonra yenə taksilər iki zolaq yolu bağlayırlar. Elə bil ki, dədəsinin həyətində maşın saxlayıb. Yolu zəbt edib, nəqliyyatın hərəkətini dondurub, heç vecinə deyil. Yəqin kimlərisə razı salırlar. Bəs Nəqliyyat Agentliyi hara baxır? Niyə burada dayanma-durmanı qadağan etmir, kamera quraşdırmır?" deyə, gündəlik bu yoldan istifadə edən sürücülərdən biri bizimlə söhbətində şikayətlənir.

**Onun sözlərinə görə, köhnə avtovağzalın ərazisi illərdir istifadəsiz qalıb və boş meydançanı taksilərin dayanacaq yerinə çevirmək olar:** "Bu taksilərin hamısını ora yığsınlar, kim "Sədərək"ə, kim Hövsana gedir, gəlib oradan taksiyə minsin. Həm nizam-intizam yaranır, həm də bu yol açılar, tıxaclarda canımız qurtarar. Necə ki, "Koroğlu" metrosu tərəfdə vəziyyət xeyli yaxşılaşıb, avtobusların dayanacağı ayrıdır, taksilər metronun qabağında ancaq axşamlar saxlaya bilirlər. Niyə "Azərsu"nun qabağında bir tədbir görmürlər? Vallah, bezmişik, nə qədər əsəbiləşmək olar?

Yolun hər iki tərəfindən hərəkət zolaqları dayanacaq kimi istifadə olunur. Əslində burada maşın saxlamaq qadağandır. Adi sürücü avtomobilini saxlasa, dərhal yol polis əməkdaşı xəbərdarlıq edəcək. Taksi şoferləri isə hərəkət zolağının iki hissəsini şəxsi dayanacağı, öz həyəti kimi istifadə edir və onlara "gözün üstə qaşın var" deyilmir.

"Bunların hamısı Lökbatana, "Sədərək", "Binə" bazarlarına müştəri daşıyırlar. Belə rüsvayçılıq olar? Siqnal verirsən, yoldan keçmir, maşını çəkmir ki, yolumu gedim. Hər gün eyni məşəqqətdir. Cənab nazirdən xahiş edirik, bu taksilər üçün ayrıca yer təşkil olunsun. Necə ki, "Neftçilər"ə işləyən taksilər yoldan çıxarılıblar. Kim onlara icazə verib ki, hərəkət zolaqlarını kəsib dayansınlar? Bu yoldan məmurlar da istifadə edirlər, ən çox maşın olan nöqtələrdən biridir. Belə özbaşınalığa yol vermək olmaz axı. Hər gün yox, hər saat burada tıxac, siqnal səsi, qışqırıq adi haldır. Başqa maşınlar saxlayanda dayanma-durma qaydasının pozulmasına görə cərimə yazılır. Bakı Nəqliyyat Agentliyinin müfəttişləri hara baxırlar?

Sanki kiməsə maraqlıdır ki, bu ərazidə xaos olsun. Biz demirik həmin şoferlər işsiz qalsınlar, sadəcə, onlara normal yer ayrılsın, nəqliyyatın hərəkəti öz axarına düşsün" deyə, sürücülər bildirirlər.

Üstəgəl, piyadaların da keçiddən istifadə etməməsi "20 Yanvar"da aləmi qarışdırıb. "Azərsu"nun qarşısındakı çığır-bağır, qışqırtı, deyəsən, kimlərinsə xoşuna gəlir.

Sürücülərin "Binə"yə", "Sədərək"ə müştəri qışqırıb çağırmasından qulaq tutulur. Taksi sürücüləri isə deyirlər ki, onlar avtomobilləri burada saxlamağa görə yer pulu verirlər.

Sərnişinlər də, sürücülər də şikayətlənirlər ki, taksilərin və avtobusların zolaqları "işğal" etməsindən beziblər.

Taksilər isə razıdır ki, onlara münasib yer təşkil olunsun. Bu əlverişli məkan isə köhnə avtovağzaldır. Metrodan çıxan sərnişin "3-cü mikrorayon dairəsi"nə düşür və hara getmək istəyirsə taksiyə minir. Dünyanın bir çox ölkələrində taksi dayanacaqları var, hətta sistem qurulub, sürücülər növbəli şəkildə müştəri daşıyırlar. Ona görə də "Azərsu"nun qarşısını təmizləmək və nəqliyyatın intensiv hərəkətini bərpa eləmək çətin iş deyil...

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

# Bahalaşmanı kimlər yaradır - pərakəndə ticarətçilər, yoxsa...

## İqtisadçı ekspert: "Bugünkü bahalaşmanın heç bir iqtisadi əsası yoxdur"

**Yanvarın ortalarından etibarən ölkənin ticarət şəbəkələrində ərzaq məhsullarının bahalaşması müşahidə olunur. Xüsusilə taxıl və süd məhsullarının qiymətində 10-50 qəpik arasında bahalaşma baş verib. Bir sıra firmaların süd məhsulları, ümumiyyətlə, kəskin şəkildə azalıb.**

Maraqlıdır ki, ölkədə süd istehsalının kəskin azalmasına dair hər hansı məlumat yoxdur. Eyni zamanda Azərbaycanın süd idxal etdiyi Avropa ölkələrində son 6 ayda süd və süd məhsullarının qiymətində xeyli ucuzlaşma müşahidə olunur. Bu şəraitdə əslində süd və süd məhsullarının bolluğu və ucuzlaşması daha gözlənilləndir, nəinki indiki qıtlıq və bahalaşma.

Sosial şəbəkələrdə də müzakirə olunan bu proses əksər istifadəçilər tərəfindən ticarətçilərin vergi qanunvericiliyindəki dəyişikliyə, həmçinin vergidən yayınmaya qarşı aparılan mübarizəyə reaksiyası kimi qiymətləndirilir.

Məsələ burasındadır ki, pərakəndə ticarətçilərin xeyli hissəsi yanvardan etibarən sadələşdirilmiş vergi ödəyicisi ola bilmir. Onlar mənfəət vergisinin ödəyicilərinə çevriliblər. Bu isə onların əvvəlkindən daha yüksək həcmdə vergi ödəməsi deməkdir. Digər tərəfdən, vergi orqanlarının işində yaradılan şəffaflıq sahibkarların vergidən yayınmaq cəhdlərinin qarşısını alır. Bütün bunların nəticəsində ticarətçi sahibkarlar ödədikləri artıq vergini satdıqları malların üstünə əlavə edirlər.

Bəs yeni qaydalar ticarətçilərin vergi yükünü bu qədərmi çox artırıb ki, onlar satdıqları məhsulları bahalaşdırırlar?

**İqtisadçı-ekspert, İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qalib Toğrulun "Yeni Müsavat"a dediyinə görə, əslində bahalaşma yalnız ərzaq məhsullarında deyil, tikinti materiallarında da qeydə alınır:** "Bugünkü bahalaşmanın heç bir iqtisadi əsası yoxdur və sırf subyektiv amillərlə bağlıdır. Vergi yükünün artması barədə deyilənlər reallığı əks etdirmir. Əvvəl topdan və pərakəndə ticarət müəssisələri, ictimai-iaşə sadələşdirilmiş vergi ödəyiciləri ola bilirdilər. Onlar dövriyyələri 200 min manata qədər olduqda Bakıda 4 faiz, regionlarda 2 faiz, ondan yuxarı olduqda ticarətçilər 6 faiz, ictimai iaşə isə 8 faiz vergi ödəyirdilər. İndi topdansatış sadələşmiş vergi ödəyicisi ola bilmir. Ticarətçilər də 200 min manatdan yuxarı dövriyyə olduqda mənfəət vergisinin ödəyicisi olurlar. İndiyədək beləydi ki, ticarətçilər, elə ictimai-iaşə də dövriyyələrini dəfələrlə kiçildirdilər ki, az vergi ödəsinlər. Eyni zamanda əmək haqlarını rəsmiləşdirmir, yaxud aşağı məbləği rəsmiləşdirib də vergidən yayınırdılar. Vergilər Nazirliyi də dəfələrlə bununla bağlı açıqlama verib. İndi vergi qanunvericiliyi dəyişib, eyni zamanda vergi orqanları yayınmalara qarşı mübarizə aparırlar. Digər tərəfdən, əmək haqlarının rəsmiləşdirilməsi sahəsində də dəyişikliklər edilir. Bütün bunlara ticarətçilər qiymət artımı ilə cavab verirlər".



**Ekspert bildirir ki, pərakəndə ticarətçilər məsuliyyəti topdansatışın üzərinə yıxmağa çalışırlar:** "Bildirirlər ki, guya topdansatış mərkəzlərindən və istehsalçılardan malları elektron qaimə faktura ilə ala bilmirlər. Halbuki hazırda ölkədə topdansatış mərkəzlərinin hamısı elektron qaimə-fakturaya keçiblər. Sadəcə, pərakəndə ticarətçilərin xeyli hissəsi dövriyyəsini tam şəffaflaşdırmaqdan, elektron qaimə-faktura ilə işləməkdən yayınmağa çalışırlar. Yəni bu həlqədə qaydalara əməl etməyən tərəf pərakəndə ticarətçilərdir. Bunu sizə apardığımız dəqiq müşahidələr əsasında bildirirəm".

**Q.Toğrul hesab edir ki, ticarətçilər öz uçot sistemlərini vaxtında qaydalara uyğun qurmağa başlamalıdılar:** "Onlara tövsiyəmiz odur ki, öz uçot sistemlərini qayda-qanunlara uyğun qurmağa başlasınlar. Əks halda, uçotun düzgün aparılmamasına görə yüksək məbləğdə cərimələr nəzərdə tutulur. Mövcud vergi yükü o qədər ağır deyil ki, risk edib uçotdan yayınmaya gedirlər. Normal qaydada vergilərini ödəyib, uçot sistemlərini şəffaflaşdırsınlar. Onların uçota aldıqları xərclərin hamısı vergi yükünü azaltmağa kömək edir. Bu baxımdan, xərclərini dəqiq və qaydalara uyğun uçotunu aparsınlar. Belə olarsa, heç qiymətləri qaldırmağa da ehtiyac qalmayacaq".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Qobustan həbsxanası müəmması çözülür

## Səadət Bənəniyarlı: "Qobustan həbsxanasında hazırda aclıq aksiyası keçirilmir"

**Qobustan həbsxanası ilə bağlı səslənən iddialar-dustaqlara işgəncə verilməsi ilə bağlı xəbərlərdən sonra insan hüquqları üzrə müvəkkil Elmira Süleymanovanın tapşırığına əsasən Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri sözügedən cəzaçəkmə müəssisəsində olublar.**

Başçəkmə çərçivəsində müəssisənin məhkumların saxlandığı rejim korpuslarına, cərimə təcridxanasına, tibb-sanitar hissəsinə və digər obyektlərə baxışlar keçirilib, saxlanılma şəraiti, habelə tibbi yardımın təşkili, qidalanma, içməli isti və soyuq su təminatı, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılıb. Müəssisənin bəzi rejim korpuslarının kameralarında saxlanılma şəraitinin təkmilləşdirilməsinə ehtiyacın olduğu müşahidə edilib.

Müəssisədə çoxsaylı məhkumlar təkbətək qəbul edilib, saxlanılma şəraiti, görüş, telefon danışığı, tibbi yardımla bağlı məsələlər araşdırılıb, habelə bir sıra müraciətlər yerində təmin olunub.

**Ədliyyə Nazirliyi yanında İctimai Komitənin üzvü Səadət Bənəniyarlı "Yeni Müsavat"a açıqlamasında bunları dedi:** "Biz bu məsələ ilə yaxından maraqlanırıq. Fevralın 6-da iclasımız keçirildi. Penitensiar Xidmətlə əlaqə saxladıq. Onların dediyinə görə, Qobustan həbsxanasında hazırda aclıq aksiyası keçirilmir. Hətta Abbas Hüseynin valideyninin narahatlığını biz çatdıranda dedilər ki, həmin məhbus valideynləri ilə həbsxanada görüşüb. Məsələlərə aydınlıq gətirildiyini bildirdilər. Biz bu məsələləri gündəmdə saxlayırıq. İctimai Komitənin üzvləri üçün Qobustan həbsxanasına baş çəkmək mümkündür. Yəqin ki, bu başçəkmə baş tutacaq".



**Penitensiar Xidmətin mətbuat xidmətinin rəhbəri Mehman Sadıqov birmənalı şəkildə deyilənləri təkzib etdi:** "Həbsxanadan narazılıq bildirənlərin kimlər olduğuna öncəliklə diqqət yetirmək lazımdır. Bu məsələni ictimailəşdirən, gündəmdə saxlamağa çalışanlar bilməlidirlər ki, Qobustan həbsxanasında hansı kontingent saxlanılır. Orada ömürlük həbs cəzasına məhkum edilənlər var. Xüsusilə ağır cinayət törətmiş şəxslər də orada cəza çəkirlər. Digər kateqoriyalı məhbuslar var ki, məhkəmələr tərəfindən xüsusilə ağır cinayətlər törətdiklərinə görə uzunmüddətli həbs cəzasına məhkum ediliblər. Onların cəzalarının ilk 3-5 və ya daha çox ili məhkəmə qərarı ilə həbsxana rejimində keçirilməlidir. Orada cəzaçəkmə müəssisələrində daxili intizam qaydalarını dəfələrlə pozduqlarına, cəzaçəkmə müəssisələrinin fəaliyyətini pozmağa cəhd göstərdiklərinə görə yenə də məhkəmələr tərəfindən Qobustana keçirilmiş şəxslərdir. İndi baxın görün orada necə bir ağır kontingent var... Bu kontingentlə işləmək üçün kifayət qədər bacarıqlı, peşəkar, təmkinli əməkdaşlar lazımdır. O əməkdaşlar işlərini həyata keçirəndə kimlərinsə xoşuna gəlmir. Fikir verin, eyni şəxslər tərəfindən bu cür şayiələr yayılır. Orada 20 ildən çox cəza çəkənlər də var. Niyə onlardan bir xəbər çıxmır? Aclıq etmək məhkumun hüququdur. Məhbus aclıq etməzdən əvvəl müəssisə rəhbərliyinə müraciət etməlidir. Aksiyanın səbəblərini mütləq qeyd etməlidir. Yəni "kefim istəyir, aclıq aksiyası keçirirəm" olmaz. Bu, daxili intizam qaydalarının pozulması deməkdir. Qanuni şəkildə aclıq edən məhbus digər məhbuslardan təcrid edilir. Eyni zamanda həkim nəzarətinə həmin məhbus götürülür. Əgər bunlar yoxdursa, hansı aclıq aksiyasından danışmaq olar?"

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Özəl kanallarda da bədii şura yaradılsınmı?

## Qulu Məhərrəmli: "Özəl kanallar elə uçuruma gedir ki, heç bir şura onun qarşısını ala bilməz"

**"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin nəzdində bir qrup tanınmış mədəniyyət və incəsənət xadiminin daxil olduğu Bədii Şura yaradılıb. Bədii Şura ayda iki dəfə toplanmaqla Azərbaycan Televiziyası və Radiosu, "Mədəniyyət" və "İdman Azərbaycan"da yayımlanan veriliş və proqramları müzakirə edəcək, öz irad və təkliflərini verəcək.**




Bədii şurada müğənni, Xalq artisti Mübariz Tağıyev, Milli Konservatoriyanın rektoru, professor, Xalq artisti Siyavuş Kərimi, bəstəkar, Xalq artisti Faiq Sücəddinov, xanəndə, Xalq artisti Mənsum İbrahimov, şair, Əməkdar incəsənət xadimi Baba Vəziroğlu, Mədəniyyət və İncəsənət Universitetinin rektoru, Əməkdar incəsənət xadimi Ceyran Mahmudova, müğənni, Xalq artisti Fidan Hacıyeva, dizayner-modelyer, Xalq artisti Fəxriyyə Xələfova, rəqqasə, Xalq artisti Təranə Muradova, tarzən, Xalq artisti Ramiz Quliyev təmsil olunacaqlar.

Bu addım ictimai rəydə müsbət qarşılansa da, bu şuranın ölkədə fəaliyyət göstərən özəl kanallarda da olması təklif kimi səslənir. Ümumiyyətlə, bu, təcrübədə mümkündürmü? Milli Teleradio Şurası (MTRŞ) bununla bağlı özəl kanallara tövsiyə verə bilərmi?

**MTRŞ-nin aparat rəhbəri Asəf Hacıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bədii şura nəinki Dövlət Televiziyasında, bütün özəl kanallarda yaradılmalıdır. Müsahibimiz xatırlatdı ki, daha öncə AzTV-də belə şura olub:** "Bu şura hər şeyə nəzarət edib. Efirdə ifa edilən musiqidən, onun sözlərindən tutmuş geyim tərzinə qədər bu şura nəzarət edib. Sonra o şura ləğv olundu və hesab edirəm ki, düzgün olmadı. Çünki efirə bayağı musiqilər və müğənnilər çıxdı. Toy müğənniləri ayaq açdı. Bu da musiqimizin get-gedə cılızlaşmasına səbəb oldu". Müsahibimiz özəl telekanallarda da bədii şuranın yaradılmasını gözəl ideya hesab etdiyini dedi. A.Hacıyevin sözlərinə görə, MTRŞ özəl kanalların yaradıcılıq fəaliyyətinə qarışa bilmədiyi üçün ancaq təklif verə bilər: "Amma "mütləq yaransın" deyə çıxış edə bilmərik".

**Media eksperti, televiziya mütəxəssisi Qulu Məhərrəmli isə "Yeni Müsavat"a açıqlamasında dedi ki, AzTV-də kateqoriyalar üzrə göstərici var və hər müğənni efirə çıxa bilməz:** "Müğənnilərin hansısa istedadı ola bilər. Amma səviyyəsiz, zövqsüz mahnılar verə bilməzlər. Bu, ənənədən irəli gəlir. Vaxtilə Azərbaycan radiosunda bədii şura olub - musiqi şurası olub. Televiziya və radioda da ənənə var. Bu, geyim, musiqi seçimi baxımdan bir ənənədir. Özəl televiziyalarda bu işlərə yanaşan, yönləndirə bilən şuraya ehtiyac var. Bu, yaradıclıq işlərinə qarışmaq deyil. Şuralar daha dolğun və estetik normalara uyğun səviyyə təklif edə bilər. Amma hazırda özəl kanallar elə uçuruma gedir ki, heç bir şura onun qarşısını ala bilməz. Yaradılsa belə, şuranın bütün problemləri həll etməsi mümkün deyil".

**Q.Məhərrəmli xatırlatdı ki, bir neçə il bundan öncə prezident telekanallarda dil şuraları yaradılması ilə bağlı fərman imzaladı. Müsahibimizin sözlərinə görə, o zaman bütün kanallar onlarda belə şuranın olması barədə raport verdilər:** "Amma sonradan bəlli oldu ki, belə bir şura yaradılmayıb. Yaradılsa belə formaldır. Çünki dil qüsurları çoxdur. Telekanallarda peşəkar rəhbər, yaxşı prodüser olanda o cür dil qaydalarının pozuntusundan, bayağı mahnılardan danışmırıq. Əksər kanal rəhbərlərinin niyyəti pul qazanmaqdır. Onların maliyyə mənbələri şəffaf olmadığı üçün məqsəd qoyublar ki, ancaq pul qazansınlar. AzTV-də yaradılan şuranın yarısı isə yararsız hala düşəcək".

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

**Deputat Fəzail Ağamalının Dövlət Arxitektura və Şəhərsalma Komitəsinin sədri Samir Nuriyevi ölkədə tikintiləri dayandırmaqda ittiham etməsindən sonra tikinti sahəsində mövcud vəziyyət diqqət mərkəzinə gəlib.**

# Tikinti oliqarxları hücumda

## Beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini pisləşdirəcək "taktika"; ekspert: "Komitə, sadəcə, hamıdan tələb edir ki, inşaat tikinti və şəhərsalma qaydalarına uyğun aparsınlar"

Deputatın öz çıxışı ilə bağlı sonradan mətbuata dediyinə görə, S.Nuriyev komitə sədri təyin olunandan sonra Bakıda tikinti demək olar ki, tam dayanıb, tikinti sektorunda çalışanlar işsiz qalıb.

Deputatın sözlərinə görə, onda S.Nuriyev vəzifəyə təyin edilməzdən öncə razılıq alınmış tikinti şirkətlərinin də öz işlərini apara bilmədiklərinə dair məlumat var: "Yəni Samir Nuriyev vəzifəyə təyin edilməzdən əvvəl bütün mərhələlərdən keçərək tikinti aparmaq üçün icazə alanlara da qadağa qoyulub. Sadəcə, "istəmirəm" deməklə olmaz axı! Əsaslandırmaq lazımdır ki, niyə tikinti aparılmasını istəmirsən. Hər halda, Samir Nuriyev düşünməli, fikirləşməli, tezliklə bu problemi aradan qaldırmaq üçün konkret addımlar atmalıdır. İstəyimiz budur. Yoxsa mənim ona qarşı hər hansı subyektiv münasibətim yoxdur, ola da bilməz".

F.Ağamalının bu çıxışlarından sonra məsələni diqqətdə saxlayan bəzi mətbuat orqanları hətta onun səsləndirdiyi narazılıqların ölkə rəhbərliyinə çatdırıldığı və S.Nuriyevə ciddi xəbərdarlıq olunduğuna dair məlumat yaydılar. Eyni zamanda komitədən də deputatın iradlarının əsassız olduğuna dair açıqlama verildi.

Bəs Bakının tikinti sektorunda nə baş verir? Vəziyyət deputatın dilinə çatacaq qədər problemlidirmi? Nəhayət, problemlidirsə, buna kim məsuliyyət daşıyır?



**"MBA Group" konsaltinq şirkətinin baş direktoru Nüsrət İbrahimovun "Yeni Müsavat"a dediyinə görə, ötən ilin ikinci yarısından etibarən Bakıda tikintiyə başlanma sahəsində ciddi geriləmə həqiqətən müşahidə olunur:** "Müşahidələr göstərir ki, tikintiyə başlanmaların sayında az qala iki dəfəyə yaxın azalma var. Amma gəlin baxaq, görək bu nədən irəli gəlir? Komitə heç bir şirkətə demir ki, tikmə. Sadəcə, hamıdan tələb olunur ki, tikintini tikinti və şəhərsalma qaydalarına uyğun aparsınlar. Bu məsələlərdə heç kimə güzəşt olunmur".

**Ekspertin sözlərinə görə, komitənin tələbləri adi standartlardır, amma illər boyu Bakı şəhərində onlara demək olar ki, əməl olunmayıb:** "Məsələn, illər uzunu hamı tikintilərin bir-birinə çox yaxın aparılmasından şikayətlənib. Tikinti sıxlığı əmsalını, adambaşına düşən yaşıllıq əmsalını qorumurlar. Binalarda avtomobil parklanma normalarına, uşaqlar üçün oyun yerlərinin saxlanması tələblərinə əməl olunmur. Komitə bunları sərt tələb şəklində qoyur, şirkətlər də onlara əməl etmədən tikməyə çalışırlar. Məsələnin kökü buradadır".

**Qeyd edək ki, Bakı şəhərində tikinti qaydalarının kobudcasına pozulması barədə illər boyu əhalinin şikayətləri aşıb-daşıb. Ötən ilin iyulunda Nazirlər Kabinetinin iclasında ölkə prezidenti bu məsələyə xüsusi diqqət yetirib. Prezident İlham Əliyev qeyd edib ki, qanunsuz tikililərə şərait yaradan dövlət məmurları çox ciddi cəzalandırılacaq:** "... Bakıda və digər şəhərlərdə bütün qanunsuz tikililərə son qoyulmalıdır. Bundan sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi, icazəsi olmadan ölkəmizdə bir dənə də bina tikilməməlidir. Kim bunu edəcəksə, dərhal mənə məlumat verilsin. Həmin o adamları ən ciddi cəzalar gözləyir. Çünki biz bu qədər səy göstəririk".

Prezident bu çıxışının ardınca ölkə üzrə tikintiyə icazələrin verilməsi sahəsində bütün səlahiyyətlərin Dövlət Arxitektura və Şəhərsalma Komitəsinə verilməsinə dair sərəncam imzalayıb. Eyni zamanda Bakı Şəhər İcra Hakimiyyətinin müvafiq idarəsini Komitəyə birləşdirib. Yəni görünən budur ki, S.Nuriyev tikinti şirkətlərinə qarşı tələbləri birbaşa ölkə rəhbərliyinin tapşırığı əsasında sərtləşdirib. Və heç kimə güzəştə getmədiyi üçün tikinti şirkətləri, daha doğrusu, onların arxasında dayanan məmur oliqarxiyasının hücumlarına məruz qalır.

Tikinti biznesinin hakimiyyətdə yüksək mənsəb sahibi olan məmurlara bağlı olduğu heç kimə sirr deyil. O da hamıya aydındır ki, arxasında iri məmur dayanmayan hər hansı bir şirkət illər boyu qanunsuz formada, heç bir normalara əməl etmədən nəinki çoxmərtəbəli bina, heç toyuq hini də inşa edə bilməzdi. Belə mənzərə yaranır ki, S.Nuriyevin dövlət rəhbərliyinin dəstəyi ilə başladığı mübarizədə qarşı tərəf əslində şirkətlər deyil, onların arxasındakı məmur oliqarxiyasıdır.

Xatırladaq ki, S.Nuriyevin rəhbəri olduğu komitə ötən ilin ikinci yarısından etibarən dəfələrlə açıqlamalar yayaraq, tikinti şirkətlərinin norma və qaydalara əməl etməmələrindən şikayətçi olub.

Komitənin hesabatından da aydın olur ki, ötən il Bakı şəhərinin 8 rayonunun, habelə ölkənin 6 rayonunun icra hakimiyyəti orqanlarının fəaliyyətinə dövlət şəhərsalma nəzarəti çərçivəsində şəhərsalma qanunvericiliyinin və normativ-hüquqi sənədlərin tələblərinin pozulması faktları aşkar edilib, bununla bağlı müvafiq nöqsanları aradan qaldırmaq məqsədilə ümumilikdə 22 icrası məcburi olan "Göstəriş" tərtib olunaraq yerli icra hakimiyyəti orqanlarına təqdim olunub. Eyni zamanda 21 fakt üzrə pozuntularda cinayət əməlləri olduğundan müvafiq məlumat ölkənin Baş Prokurorluğuna təqdim edilib.

"Yeni Müsavat"ın əldə etdiyi məlumata görə, şirkətlərin əksəriyyəti komitənin tələblərini iqnor edərək, tikintiyə başlamaqdan imtinaya üstünlük verirlər. Bunun əslində məmur şəriklərindən gələn tapşırıq əsasında düşünülmüş bir plan olduğu qeyd edilir. Məsələ burasındadır ki, tikintiyə icazələrin alınması Azərbaycanın beynəlxalq hesabatlardakı mövqeyinə təsir göstərən əsas kriteriyalardan biridir. Son illərdə bu sahədə həyata keçirilən tədbirlər nəticəsində Dünya Bankının "Doing Business 2019" hesabatında "Tikinti üçün icazə alınması" indikatoru üzrə Azərbaycanın mövqeyi 100 pillə irəliləyərək 61-ci yerdə qərarlaşıb. Bu mövqenin daha da yaxşılaşması üçün prezident 28 dekabr 2018-ci il tarixdə "Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb. Yeni qaydalar tikinti layihəsini hazırlayacaq tərəfdən tutmuş sənədlərin yoxlanılması, müvafiq orqan tərəfindən rəy verilməsi, tikintiyə və istismara icazə müddətlərini, eyni zamanda icazədən imtina və çatışmazlıqların aradan qaldırılması, tikinti obyekti üzərində əmlak hüquqlarının qeydiyyatının aparılma prosedurunu müəyyən etməklə yanaşı, onlar üçün tələb olunan vaxt məhdudiyyətlərini də bəlli edir.

Yanvarın sonlarında isə komitə Bakı şəhəri üzrə tikinti obyektlərinin tikintisinə və istismarına icazənin alınması üzrə elektron müraciət sisteminin təqdimatı keçirildi. Bu elektron müraciət sistemi prezidentin 28 dekabrda imzaladığı qeyd edilən fərmana uyğun olaraq Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən birgə hazırlanıb. Elektron müraciət sistemi vasitəsilə tikinti obyektinin sifarişçisi Bakı şəhəri üzrə, Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq ekspertizasının keçirilməsi tələb olunmayan tikinti obyektlərinin tikintisinə və istismarına icazənin alınmasını "bir pəncərə" prinsipi əsasında elektron formada həyata keçirə biləcək.

Açıq hiss olunur ki, tikinti maqnatlarının məqsədi tikintiyə icazələrin verilməsi kimi bir məsələdə Azərbaycanın mövqeyini pisləşdirəcək taktika yürütməklə komitə rəhbərliyinin fəaliyyətini sabotaj etməkdir. Belə düşünürlər ki, bununla S.Nuriyevin vəzifədən alınması, yaxud onun geri çəkilməsinə nail olunacaq. Bu taktikanın nə qədər uğurlu olacağını yəqin ki, yaxın aylarda görə biləcəyik.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Ölkədə on minlərlə insan sürüşmə zonasında yaşayır-təhlükə

## Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmisi: "Zığ ərazisindəki mövcud çatlarda gözlə görüləcək qədər artım müşahidə olunur"

**Şamaxıda zəlzələ baş verdikdən sonra ölkədə sürüşmə zonalarındakı vəziyyət bir daha gündəmə gəlib. Rəsmi rəqəmlərə görə, hazırda Azərbaycanda əhalisi 500 min nəfərdən çox olan 344 yaşayış məntəqəsi və yüzlərlə təsərrüfat obyekti sürüşmə təhlükəsi altındadır. Təkcə Bakıda bir neçə əsas sürüşmə ocaqları müəyyənləşib.**

Əhmədli şosesi, Zığ şosesi, Binəqədi, Bayıl, Badamdar, Masazır gölünün ətrafında - ümumilikdə təxminən 20 yerdə böyük sürüşmə sahəsi var. Həmin sürüşmə sahələrində 150 mindən çox əhali məskunlaşıb. Bu ərazilərdə sürüşmə sahələri geniş yayılıb və həmin ərazilər sürüşmə baxımından təhlükəli hesab edilir. Mütəxəssislərin sözlərinə görə, son 20-25 ildə Bayıl yamacında sürüşmə sahəsi daha da artıb.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji Planlama Ekspedisiyasının rəisi Əziz Qaralov "Yeni Müsavat"a bildirib ki, Şamaxıda zəlzələ baş verdikdən sonra nazirliyin əməkdaşları əraziyə yollanıblar:**

"Fevralın 6-da əməkdaşlarımız İsmayıllı və Şamaxıdakı bütün qədimi sürüşmə sahələrində və eləcə də son dövrlərdə yaranan sürüşmə zonalarında oldular. Müşahidə edildi ki, həmin sürüşmə zonalarında gərginlik, dəyişiklik yoxdur. Eyni zamanda Bayıl ərazisində də vəziyyət sabit olaraq qalır. Zığ ərazisində isə sürüşmə aktivdir və mövcud çatlarda gözlə görüləcək qədər artım müşahidə olunur. Badamdarda Fövqəladə Hallar Nazirliyinin əməkdaşları işlər aparırlar. Bizdə olan məlumata görə, ərazidə vəziyyət stabildir və elə bir gərginlik yoxdur".



Onu da qeyd edək ki, Badamdarda sürüşmə baş verdikdən sonra ərazidən keçən avtomobil yolu bağlanıb. Məlum olduğu kimi, ölkədə aprel ayında Formula -1 yarışları keçiriləcək. Bu zaman isə həmin yol da bağlanacaq. Əldə etdiyimiz məlumata görə, Formula -1 yarışları ərəfəsində gündüz saatlarında Badamdar yolu açıla bilər.

Ölkə ərazisində təhlükəli zonalara gəlincə isə qeyd edək ki, sürüşmələrin mütəmadi olaraq təkrarlandığı, əhaliyə və təsərrüfata güclü ziyan vurduğu rayon və şəhərlər sırasına İsmayıllı, Ağsu, Şamaxı, Quba, Qusar, Bakı və Mingəçevir daxildir. Hər il sürüşmə nəticəsində həmin ərazilərdə iqtisadiyyata milyonlarla manat zərər dəyir.

Mütəxəssislər bildirirlər ki, sürüşmə əslində kifayət qədər təhlükəli prosesdir. Bunun nəticəsində çoxsaylı ölümlər də baş verə bilər.

Bəs son aylar haqqında çox yazılan sürüşmə hadisəsi necə baş verir?

Sürüşmə ağırlıq qüvvəsinin təsiri altında torpaq kütləsinin və təbəqəli süxurların qopub yamac boyu sürüşərək yerdəyişməsidir. Sürüşmə ən çox suyadavamlı süxur qatları ilə sulu süxur qatları üst-üstə yerləşdiyi yamaclarda baş verir. Yağış sularının hopub keçirməyən qatın üzərində yığılması sürüşmə əmələ gətirir. Eyni zamanda sürüşmə abraziya, eroziya, aşınma, seysmik hadisələr və sair təbii proseslər, həmçinin yerin geoloji şəraitini nəzərə almadan insan tərəfindən görülən işlərin təsiri nəticəsində yaranır. Məsələn, mütəxəssislər bildirirlər ki, Bakıda baş verən sürüşmələrin əksəriyyəti insan amili ilə bağlıdır. Bura kanalizasiya sularının axıdılması, yamacın kəsilməsi kimi faktlar daxildir.

Sürüşmə əkin sahələrinə, sənaye müəssisələrinə, yaşayış məntəqələrinə, yollara və s. böyük zərər vurur. Onlarla mübarizə etmək üçün sahilbərkitmə və drenaj qurğularından istifadə olunur, yamaclar yerə dirək vurulması və ağac əkilməsi yolu ilə bərkidilir və digər işlər görülür.

Sürüşmənin xarakteri və onun təhlükəlilik dərəcəsi yerin geoloji qatlarının xüsusiyyətlərindən və necə yerləşdiyindən asılı olur.

Sürüşmə haqqında elmi məlumatlarda qeyd edilir ki, sürüşmə kütləri müxtəlif süxurlardan təşkil olunur ki, onlar arasında tarazlığın pozulması davamlığın zəifləməsinə səbəb olur

Beynəlxalq statistik məlumatlara görə, sürüşmələrə 80% antropogen amillər səbəb olur. Sürüşmələr 10 dərəcə və daha çox bucaq altında olan yamaclarda baş verir. Gilli süxurlara malik zonalarda isə həddindən çox nəmişlik hətta 5-7 dərəcə bucaq altında sıldırım olduqda belə sürüşmələrə gətirib çıxara bilər.

İri sürüşmələr adətən təbii amillərin təsirindən baş verir və yamac boyunca yüz metrlərlə sahəni əhatə edir. Orta və kiçik həcmli sürüşmələr isə daha kiçik ölçülərdə olur və çox zaman antropogen amillərin təsirindən yaranır.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 30 (7200) 8 fevral 2019

# Cahangir Hacıyev 4.7 milyardlıq ittihamdan danışdı

## Sabiq bankir məhkəməni şou adlandırdı, "Azərbaycanın büdcəsində 4.7 milyard yoxdur"




**Sabir bankir Cahangir Hacıyev 21 nəfərlə birlikdə növbəti dəfə hakim önünə çıxarılıb. Musavat.com xəbər verir ki, "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev və onunla birlikdə ittiham edilən şəxslərin cinayət işi üzrə məhkəmə iclası Bakı Ağır Cinayətlər Məhkəməsində baş tutub.**

Hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə Cahangir Hacıyev sərbəst ifadə verib. Sabiq bankir ona qarşı irəli sürülmüş ittihamı qəbul etməyib. Sabiq bankir ittihamı şou adlandırıb.

Dövlət ittihamçılarının şou göstərdiyini deyən C.Hacıyevə cavab gecikməyib. Prokurorlar sabiq bankirə etiraz edib və bundan sonra hakim C.Hacıyevdən ittihamın mahiyyəti üzrə danışmasını tələb edib.

Sözünə davam edən Cahangir Hacıyev ələ keçirdiyi deyilən 4.7 milyard haqda danışıb. O deyib ki, heç Azərbaycanın büdcəsində bu qədər pul yoxdur. "Bu məbləğ Azərbaycan Mərkəzi Bankının valyuta vəsaitlərinə bərabərdir. Azərbaycan Beynəlxalq Bankının "Moskva" filialının aktivləri 2 milyona yaxın olub. Bəs mən 4.7 milyard manatı necə mənimsəmişəm? Dövlət ittihamçıları cinayət işini oxumayıblar. Onlar ancaq ittiham hissəsi ilə tanış olublar" deyən, sabiq bankir həmin məbləğin özü və ailə üzvləri tərəfindən mənimsənilmədiyini deyib.

C.Hacıyev bu ittihamın sübuta yetirilməsini məhkəmədən xahiş edib: "Xahiş edirəm ki, göstərin, görək pullar mənim və ailə üzvlərimin hesabına necə köçürülüb? Həmin pullarla şəxsi əmlak almışam? Biz dövlət təşkilatı olmamışıq. Bankın rəhbəri olduğum dövrdə dövlətin payı 50.2 faiz idi". O qeyd edib ki, bankın rəhbəri işlədiyi zaman müavini Emin Mustafayevin şikayəti əsasında barəsində cinayət işi açılıb və həbs edilib. C.Hacıyev əlavə edib ki, "Dünyamin Xəlilovu cavan vaxtlarımdan tanıyıram, amma onunla heç bir biznes ələqəm olmayıb. Sadəcə, o, mənim tapşırığımla bəzi layihələrə nəzarət edirdi".

Zərərçəkmiş qismində Beynəlxalq Bankla yanaşı, "Aqrokredit bank" və Vergilər Nazirliyi tanınıb.

Həbs edilənlərdən biri C.Hacıyevin dostu, hazırda həbsdə olan Dünyamin Xəlilovdur. İsmayıl Hidayətzadə təqsirləndirilən şəxsdir. O, C.Hacıyevin bacanağıdır və "İntertabakko" Zaqatala tütün emalı zavodunun direktoru vəzifəsində işləyib.

Hidayətzadə "Azərbaycan Beynəlxalq Bankı" ASC-dən kredit götürərək qaytarmamaqda günahlandırılıb və 5 il cəza alıb.

Digər şəxslər isə Camal Həsənov, Sərxan Rəsulov, Natiq İmanov, Samir Hacıyev, Təbriz Əbdülhəmidov, Mahir Qaffarov, Sadıx Murtuzayev, Tərlan Məhərrəmov, Fəxrəddin Heybətov, Ramin Əhmədov, Mariz Muradov, Səlahəddin Qədirov, Erxan Cavad, Arif Ramazanov, Navai Şirinov, Svetlana Əsədullayeva, Arif Mədətov, Adil Mikayılov, Ramis Kərimovdur.

Onlar barəsində mənimsəmə ittihamı irəli sürülüb.

Rəsmi məlumata görə, aparılmış istintaqla 2001-2015-ci illərdə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sədri vəzifəsində işləmiş C.Hacıyevin göstərişləri əsasında ayrı-ayrı ölkələrdə yaradılmış hüquqi şəxslərlə real dəyəri olmayan sadə veksellərin alqı-satqısına dair 3,4 milyard ABŞ dolları və 987 milyon avro məbləğində (müvafiq dövrün məzənnəsi ilə 3,8 milyard manat) müqavilələr bağlanılaraq qanunsuz veksel əməliyyatları aparılmasına dair əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, istintaqla C.Hacıyevin göstərişləri əsasında həmin dövrdə qeyriləri vasitəsi ilə çoxsaylı kredit müqavilələri bağlanaraq manat və xarici valyutalarla rəsmiləşdirməklə 900 milyon manat həcmində pul vəsaitinin bankdan digər hesablara köçürülərək mənimsənilməsinə dair əsaslı şübhələr müəyyən edilib.

Aparılmış istintaqla C.Hacıyevin tanışı Dünyamin Xəlilov, digər 20 nəfər və qeyriləri ilə birlikdə qanunsuz maliyyə əməliyyatları aparılan və real dəyəri olmayan veksellərin alınması, eləcə də təminatı olmayan kreditlərin verilməsi yolu ilə ümumilikdə 4,7 milyard manat məbləğində pul vəsaitinin mənimsəmə və digər cinayətlər yolu ilə 2,5 milyard manat hissəsini ələ keçirməklə cinayət yolu ilə əldə edilmiş həmin vəsaitin 2 milyard manatını leqallaşdırmasında, digər 2,2 milyard manat məbləğində pul vəsaitinin isə müxtəlif əməliyyatlara yönəltməklə "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə ziyan vurmasına əsaslı şübhələr müəyyən edilib.

❑ **İlkin MURADOV**
**Musavat.com**

# Müxalifətin bankda nə qədər pulu var?

## Ana müxalifət partiyasını Türkiyənin ən böyük bankı ilə bağlayan nədir?

**Türkiyədə İş Bankı və CHP mübahisələri yenidən qızışıb. Prezident Ərdoğan deyib ki, İş Bankı payı Qazi Mustafa Kamal (Atatürk) tərəfindən CHP-yə deyil, dövlət xəzinəsinə bağışlayıb. "İş Bankı dövlətin olacaq və Böyük Millət Məclisi Allahın izni ilə bu qərarı verəcək" deyə, Ərdoğan bildirib.**




Söhbət Türkiyənin rəsmi dövlət bankı olan İş Bankı səhmlərinin bir qisminin müxalifətdə olan CHP-də olması ilə bağlı iddiadan gedir. Məlum olduğu kimi, Atatürk hələ sağlığında İş Bankındakı payını rəhbərlik etdiyi və o zaman əsas siyasi təşkilat olan CHP-yə verib. Ancaq AKP hökuməti bu payın geri alınmasına çalışır.

CHP sədri Kamal Kılıçdaroğlu yerli mətbuata bildirib ki, bu cür müzakirələr hazırkı vaxtda daha çox gündəmi dəyişməyə hesablanıb. O deyib ki, bu cür mübahisələrə qatılmaq istəmir.

CHP sədrinin müavini Seyid Torun isə deyib ki, İş Bankındakı pay Atatürkün CHP-yə hədiyyəsidir və ana müxalifət partiyası bu mirasa sahib çıxır. Lakin eyni zamanda əlavə edib ki, partiyanın bu paydan hər hansı gəliri yoxdur. Yuxarıda qeyd etdiyimiz kimi, bu iddialar zaman-zaman gündəmə gəlir. Ötən ilin payızında da hökumət və ana müxalifət yenə İş Bankı payı söhbəti üzərindən "atışmışdı". Bəs həqiqət nədir? İş Bankında CHP-nin nə qədər payı var?

Qeyd edək ki, İş Bankı Türkiyə Cümhuriyyətinin ilk illərində yaranmış ilk dövlət bankıdır. Bank 1924-cü ildə Atatürkün sərəncamı ilə yaradılıb. Mustafa Kamal Atatürk ölümündən iki ay əvvəl, 1938-ci il sentyabrın 5-də əllə yazdığı vəsiyyətnaməsində İş Bankındakı səhmlərini, yəni 28,09 faizi sədri olduğu Cümhuriyyət Xalq Partiyasına vəsiyyət edib. Ümumiyyətlə isə İş Bankının səhmlərinin 40,25-i İş Bankının təsisçi fonduna məxsusdur. "Atatürk hissələri" adlanan 28,09 faizlik səhm isə CHP-yə verilib. 31,66 faizlik səhm paketi isə xalqa açıqdır.

Ancaq İş Bankındakı 28,09 faizlik səhm paketindən CHP-yə maddi qazanc gəlmir. Səhmlər CHP-yə məxsus olsa da, Atatürkün vəsiyyətinə əsasən bankdan gələn gəlir 1931-ci ildə qurulmuş Türk Tarix Qurumu ilə 1932-ci ildə qurulan Türk Dil Qurumuna verilir. Bu mənada CHP, sadəcə, vəsiyyəti icra edən orqan funksiyasını daşıyır.

Qeyd edək ki, bir qədər əvvəl CHP-nin telekanal alması ilə bağlı xəbərlər yayılıb. Bu xəbərə reaksiya verən prezident Ərdoğan deyib ki, partiyanın Atatürkün mirasına sahiblənməsi qanunlara ziddir. Türkiyə prezidenti deyib ki, CHP İş Bankdan faiz almasa da, bankın idarə heyətində partiyanın 4 nümayəndəsi təmsil olunur. Ancaq bankın idarə heyətində təmsil olunan üzvlər onun fəaliyyətinə birbaşa müdaxilə etmək səlahiyyətinə malik deyil. Çünki əsas qərarverici orqan bank işçiləri və təqaüdçülərin təmsil olunduğu qurumdur. CHP isə bir mənada əsas pay sahibi olduğu bankda işlərin gedişinə nəzarət etmək üçün əsasən menecment və hüquq sahəsində təcrübəsi olan 4 nümayəndə göndərir. CHP nümayəndələri 3 ildən bir yenilənir.

Maraqlıdır ki, İş Bankı rəsmi açıqlama yayaraq səhmdarların bankın fəaliyyətinə müdaxilə edə bilmədiyi, eləcə də Atatürk hissələrinin bankın nizamnamə fəaliyyətlərinə qarışmadığını qeyd edib.

Qeyd edək ki, Türkiyədə 1980-ci il sentyabrın 12-də baş vermiş hərbi çevrilişdən sonra siyasi partiyaların, o cümlədən CHP-nin də fəaliyyəti dayandırılıb. Bundan sonra CHP-nin İş Bankındakı səhmləri dövlət xəzinəsinə verilib. Yalnız bir neçə ildən sonra CHP Konstitusiya Məhkəməsinə müraciət edərək İş Bankındakı payını geri tələb edib və məhkəmə bu tələbi təsdiqləyib.

Türkiyənin ən böyük və ən qədim bankı olan İş Bankı 2014-cü ildə 219 milyard lirəlik aktivləri ilə Türkiyənin ən böyük bankı olub. Sərmayə imkanlarına görə İş Bankı dünyada 118-ci yerdədir. Bankın 25-i ölkə xaricində olmaqla 1350 şöbəsi, 6 min bankomatı və 20 min işçisi vardır. Bundan başqa,ı İş Bankının Rusiyada və Almaniyada törəmə bankları var.

İş Bankı 1924-cü ilin iyul ayında Nazirlər Kabinetinin toplantısında Atatürkün sərəncamı ilə yaradılıb. Bankın ilk sədri Cəlal Bayar olub və 10 nəfərlik işçi heyəti ilə 26 avqust 1924-cü ildə fəaliyyətə başlayıb. Həmin ilin sonlarında İstanbul şöbəsi, 1925-ci ildə isə İzmir və Bursa şöbələri açılıb. Bankın təsisçiləri arasında Atatürklə yanaşı daha 36 nəfər olub. Tezliklə İş Bankı Türkiyədə mədən sənayesi, gəmiçilik, kömür ticarəti kimi sahələrdə pay sahibi olub, eləcə də şəkər tozu istehsalı, şüşə sənayesi kimi sahələrə yatırım qoyub. 1927-ci ildə isə İtibari Milli Bankı ilə birləşən İş Bankası daha böyüyüb və sərmayəsini 4 milyon lirəyə çatdırıb. 1997-ci ildə Türkiyədə ilk internet şöbəsini də İş Bankı yaradıb.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 30 (7200) 8 fevral 2019

# Uşaqları niyə atırlar: Bakıda və Bərdədəki hadisələri yaradan səbəblər





## Dünya və Azərbaycanda atılan uşaqlarla bağlı hekayələr, çıxış yolları, daha nələr...

**Bu günlərdə Bərdədə iki uşağını atan ana barədə xəbərlər medianın gündəmində idi. Jurnalistlər hadisənin ayrı-ayrı tərəfləri ilə onu dəyərləndirməyə çalışsa da, problemin köklü həllinə ehtiyac var.**

"Bərdədə ana tərəfindən küçəyə atılan uşaqların müvəqqəti olaraq uşaq evinə verilməsini istəyirik". Bunu "Trend" agentliyinə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva deyib.

**O bildirib ki, məsələ komitənin nəzarətindədir:** "Biz Bərdə Rayon İcra Hakimiyyəti nəzdindəki monitorinq komissiyasına da müraciət etmişik. Komitə olaraq mövqeyimiz belədir ki, uşaqlar məsuliyyətsiz anaya qaytarılmasın. Müvəqqəti olaraq uşaqlar dövlət müəssisəsində saxlanılmalıdır. Qadınla iş aparılandan sonra uşaqlar qaytarılmalıdır".

**A.Sofiyeva Bakıda daha iki uşağın küçəyə atılması məsələsinə də diqqət çəkib:** "Uşağı dünyaya gətirmək və onu küçəyə atmaq cinayətdir. Bu, valideyn məsuliyyətsizliyidir. Hər belə faktla komitə maraqlanır. Bizim tərəfimizdən lazımi tədbirlər görülür və hüquq-mühafizə orqanlarına müraciət olunur".

"Yeni Müsavat" xəbər verir ki, bu cür hallarda valideynin öz məsuliyyətini yerinə yetirməməsi ilə əlaqədar inzibati məsuliyyətə cəlb edilməsi vacib sayılır. Ən ağır cəza isə valideynlik hüququndan məhrum edilmədir. Bəs bunun üçün nə etməli? Yerli icra hakimiyyətinin himayədarlıq və qəyyumluq şöbəsinin komissiyası tərəfindən məhkəmədə məsələ qaldırılır. Valideyn yalnız məhkəmə qərarı əsasında valideyn hüququndan məhrum edilir. Bundan başqa, atılmış uşaqlarla bağlı valideyn uşağın alimentini ödəmədiyi halda da valideyn hüququndan məhrum edilə bilər.

Amma uşaqların küçəyə, xəstəxana, məscid qapısına, varlı evlərin qarşısına atılması nəinki Azərbaycanda, dünyanın bir çox ölkələrində geniş yayılmış haldır. Məsələn, Türkiyədə hər il orta hesabla 500 körpə küçəyə atılır. Son 8 ilin statistikası isə qorxuncdur. Belə ki, İstanbul, İzmir, Ankara və Adana başda olmaq üzrə ölkə miqyasında tam 4 min uşaq demək olar ki, ölümə tərk edilib. Türkiyəli sosioloq Ercan Tatlıdil bu faciəni "sürətli qloballaşma ilə birlikdə gənclərin ata-ana sevgisindən uzaq olması" ilə əlaqələndirir.

Bundan başqa, sosial nəzarət mexanizminin geniş yayıldığı vilayətlərdə nikahdankənar uşaq sayı da xeyli aşağıdır. Ümumiyyətlə, böyük şəhərlərdə yalnızlığa düşən gənclərin adət-ənənənin xaricinə asanlıqla çıxdığı faktdır. Amma evli kişidən dünyaya uşaq gətirən qadınlar tamam fərqli davranır. Belə ki, onlar bu yolla dünyaya gələn uşağa heç bir vəchlə sahib çıxmaq istəmirlər. Körpələr birbaşa onu dünyaya gətirən anaları tərəfindən parka və ya binanın qapısına atılır.

Məsum körpələrin hekayələri qəzet səhifələrində tez-tez yer alır. Məscid qapısına, xəstəxana bağçasına, zibil yeşiyinin yanına qoyulan uşaqları ya həmin saatlarda vəzifə başında olan polislər, ya da səhər namazına gedən insanlar tapır. Ümumən uşaqların sübh saatlarında deyilən məkanlara atıldığı qeydə alınıb. Amma bəzən bu hekayələr xoş sonluqla bitmir. Belə ki, zibil qutusunun yanına atılan uşağı vəhşi itlər parçalayır, qışdırsa, bu körpələr soyuqdan donur və sair.

Tərk edilən uşaqların çoxluğu hər nə qədər ürəkləri sızıldatsa da, işin sevindirici tərəfi də var. Bu uşaqların 99 faizi övladlığa verilir və isti bir yuvaya qovuşur. Övladlığa uşaq götürmək istəyən ailələrin xüsusən 0-1 yaş aralığındakı qız uşaqlarını tərcih etdikləri də vurğulanıb.

**Ana qəddardırsa, uşağını zibil qutusunun yanına, humanistdirsə, xəstəxanaya atır...**

Evli bir kişi ilə münasibətdən dünyaya gələn, atanın öz familiyasını vermədiyi, qadından da, körpəsindən də imtina etdiyi zaman bu sayaq cinayətlər yaşanır. Bu sayaq qadınlar çox vaxt hamilə qalarlarsa, sevdikləri kişi ilə münasibətlərini rəsmiləşdirəcəklərinə ümid edirlər. Ona görə də hamiləliyin ilk aylarında uşaqdan imtina etmək ağıllarına da gəlmir. Amma uşaq dünyaya gələndən sonra da vəziyyət dəyişməyincə, çıxış yolu olaraq uşağı atmağı üstün tuturlar. Bundan başqa, tənha ana olmağı tərcih edən qadınlar ilk günlər bunun çətinliyini dərk edib, riskli addım atırlar. Bu halda da hər kəs öz mənəvi durumuna, insanlığına uyğun addım atır. Körpəsindən imtina etdiyi halda, onun yaşamasını arzulayan qadınlar isə daha humanist yol seçirlər. Belə ki, onlar xəstəxana, məscid və ya tanıdıqları bir sonsuz ailənin qapısını seçərək, övladlarına yaşam və ailə haqqı tanıyırlar.

**Dünya ölkələrində uşaq qutusu - ana övladını atır, amma ikinci şansını yox...**

Bu sayaq hallar, daha çox seriallarda, filmlərdə görürük. Özü də təkcə Şərq ölkələrinə xas bir hal deyil. Dünyanın bir çox ölkələrində uşağından imtina edən qadınlar üçün B variant da var. Məsələn, Rusiyanın Soçi şəhərində arzulanmayan uşaqlar doğulanda doğum evi və dövlət binalarının yanında Baby-Box adlı özəl qutular yerləşdirilir. İstəyən ailələrin dövlətin müdafiəsinə verilmək üzrə yeni doğulan uşaqlarını qutuya qoyurlar. Əgər qadın hər hansı bir səbəblə uşağından gizli bir şəkildə vaz keçmə qərarı alırsa, bu durumda öz körpəsini bu qutuya qoyur. Qutuda qapılar qapanır qapanmaz aydınlatma, klima və isitmə sistemləri dərhal fəaliyyətə başlayır.

Ananın düşünmək üçün 30 saniyə zamanı qalır. Əgər ana qərarını dəyişdirərək uşağını geri almağı düşünürsə, ona 30 saniyəlik bir haqq verilir. Bu zaman dilimi içində qutunun qapısı açıq qalır. Amma sonra qutuların qapısı avtomatik olaraq qapanır.

Qutunun özəl bir funksiyası var. Uşaq qutuya qoyulandan sonra doğum evinə özəl bir siqnal gedir. Qutunun xarici pəncərəsində isə qırmızı işıq yanmağa başlayır. Bu siqnalın ardınca doğum evinin növbətçisi qutuya yaxınlaşaraq körpəni alır.

Körpəsini qaytarmaq istəyən anaya daha sonra bir şans daha verilir. Amma ana uşağın ona aid olmasını genetik analizlə təsdiqləməlidir.

Rusiyada bu cür qutulara ciddi ehtiyac var. Ölkənin Səhiyyə Nazirliyindən yayılan məlumatda bildirilir ki, onlar uşaqları daha çox dəmir yolu stansiyalarından, ac və soyuq yerlərdən yığırlar.

Uşağı atmaq üçün Avropa ölkələrinin bir çoxunda bənzər üsullar on ildən artıqdır ki, istifadə olunur. Uşaqlar həmin qutuların içində saatlarla yaşaya bilirlər. Təxminən 3-5 dəqiqə ərzində gələn siqnaldan sonra uşaqlar həmin qutulardan götürülür.

Ümumiyyətlə, "körpə qutusu" sistemi 10 il öncə Avropada tətbiq olunmağa başlayıb. Bu sistem ilk dəfə Macarıstanda tətbiq olunmağa başlayıb, daha sonra isə Almaniyada yayılıb. Hazırda düz 13 ölkədə bu qutulardan istifadə olunur. Avstraliya, Belçika, Çexiya, Macarıstan, Hindistan, İtaliya, Fransa, Yaponiya da bu sıradadır.

Bir Qərb ölkəsində xəstəxana və sosial mərkəzlərin divarlarında kiçik pəncərə, poçt qutusuna bənzəyən bir qapaq görsəniz, heç vaxt maraqlanıb açmayın. Çünki qarşınıza kiçik bir uşaq çıxa bilər. Arxa tərəfində özəl isidilmiş mini yataqların yer aldığı bu qapaqlar istənməyən yeni doğmuş körpələrin saxlanması üçün nəzərdə tutulub.

Körpə qutularının ən çox istifadə olunduğu ölkə Almaniyadır. Burada 80 mərkəz var. Körpələrə 8 həftəlik baxım tətbiq olunur. Əgər bundan sonra da ana qərarından vaz keçməzsə, onu övladlığa verirlər. Məsələn, 2015-ci ildə Hamburqda qutulara qoyulan 22 körpədən 7-sinin anası qərarından vaz keçərək, uşaqlarını geri alıblar. Avstraloyada isə atılan uşaqlara isə sosial xidmət 6 ay baxır. Daha sonra isə övladlığa verilir.

Çexiyada Sosial İşlər Nazirliyi 2006-cı ildə körpə qutularını qanuniləşdirdi. Amma ölkə polisi bəyanat verdi ki, polis tərk edilmiş uşaqların analarını axtaracaq.

**Uşaq atmaq 5 il türmə deməkdir - bir çox ölkələrdə**

Yaponiyada isə bir usağı tərk etmək anasına 5 ilə qədər həbs cəzası olaraq qayıdır. Ancaq Jikei xəstəxanası özəl icazə sayəsində körpə qutusu sistemini tətbiq etməyə başlayıb. İngiltərədə isə bu sistemdən istifadə olunmur. Əksinə, iki yaşından daha kiçik bir uşağı övladlığa verən analar 5 ilə qədər cəzalandırılır.

Çexiyada isə hökumət uşağını atan anaya düşünmək üçün 1 həftə vaxt verir. Bəzi ölkələrdə körpə qutuları haqqında neqativ müzakirələr olsa da, Hindistanda bunun tam tərsi baş verir. Hindistan hökuməti bu sayaq qutuların çoxalması üçün səy göstərir. Bunun səbəbi isə ölkədə çox da rəğbət görməyən qız körpələridir. Ötən il keçirilən bir araşdırmada 500 mindən çox qız uşağının abort edildiyi üzə çıxdığından ölkədə insanların istəmədikləri uşaqlarını qoymaları üçün hardasa hər yerə körpə qutuları yerləşdirilir.

**Kilsə divarındakı yetim beşiyi**

İlk dəfə 1198-ci ildə İtaliyada istifadə edilməyə başlanan körpə qutularına o zamanlar "yetim beşiyi" adı verilirdi. Papa III Innocent, ailələrin arzulanmayan körpələri öldürmək yerinə buralara gizlicə qoyulmasını uyğun hesab edirdi. Silindir şəklindəki bu beşiklər kilsələrin xarici divarına bərkidilmişdi. Analar körpələrini bu silindirin içinə qoyub çevirdikləri zaman uşaq kilsənin içinə girirdi. Bunun 19-cu yüzilə qədər istifadə edilmiş bir nümunəsi də hələ Vatikandakı Santo Spirito xəstəxanasında saxlanılır. Bu sistem 1709-cu ildə Hamburqda bir yetimxanada istifadə olunmağa başlandı. Amma ora qoyulan körpələr yetimxananın potensialını aşdığı üçün beş il sonra vaz keçildi. Bu dövrdə Fransa və İrlandiya kimi ölkələrdə də tətbiq olunan sistem 19-cu əsrdə sona çatdı.

**Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 30 (7200) 8 fevral 2019




# Burulğanlı dünya dənizindən sahilə çıxmağın yeganə vasitəsi

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Əyyami-Fatimə (s.ə) günlərini yaşamaqdayıq. Bu günlər İslam tarixinin ən hüznlü, ən kədərli və ən ibrətamiz günləridir. Bu günlərdə Həzrət Zəhra (s.ə) haqq dünyasına səfər edərək, ümməti yetim qoymuşdur.**

Nəql edirlər ki, İmam Əli (ə) Həzrət Fatiməni (s.ə) torpağa tapşırarkən buyurmuşdur: "Salam olsun sənə, ey Allahın Peyğəmbəri! Mənim tərəfimdən və kənarında uyuyan və sənə (başqalarından) daha tez çatan qızından! Ey Allahın Peyğəmbəri, qızının kədərləndirici ayrılığından səbrim tükəndi və güc və taqətimi əldən verdim. Amma sənin böyük kədər yaradan ayrılığın və səni itirmənin böyük müsibəti - belə bir vaxtda mənim təsəlli amilimdir. Çünki başının mənim sinəmdə olduğu, mənim qucağımda can verdiyin və öz əlimlə başını qəbrinin daşı üzərinə qoyduğum anları heç vaxt unutmaram.

Biz hamımız Allah tərəfindənik və Ona tərəf qayıdacağıq. Budur - (mənə tapşırdığın əmanət) geri qaytarıldı və girov alındı. Amma bundan sonra, Allah mənim üçün sənin olduğun diyarı seçincəyə qədər, mənim (sizin ayrılığınız üçün olan) qəm-kədərim daimi olacaq, gecələrim oyaqlıqla keçəcək. Tezliklə qızın səni ümmətinin və bir-birləri ilə əlbir olanların ona olan zülmlərindən və haqqını qəsb etmələrindən xəbərdar edəcək.

Bütün baş verənləri ondan soruş və vəziyyət barəsindəki xəbərlərin hamısını ondan xəbər al. Bu zülmlər baş verərkən sənin getməyindən elə də çox zaman keçməmişdi və xatirələrin itməmişdi.

Salam olsun sizə, bezikmək deyil, vida salamı! Buna görə də əgər sizin yanınızdan getsəm, bu, bezikmək və məhəbbətin olmaması demək deyil. Əgər qalsam, bu, Allahın səbir edənlərə vəd etdikləri barəsində pis gümanda olmağımdan deyil".

## Həzrət Fatimə (s.ə) irsi

Bəli, belə bir kədər dolu günlərdə yaşayırıq. Həzrət Fatiməni (s.ə) anarkən, onun ideallarına diqqət etmək düzgün olardı. Burada Həzrət Fatimənin (s.ə) irsini yada salmaq gərəkdir. Bu irsdən söz düşərkən, ilk növbədə göz önünə hicab gəlir. Zaman-zaman basqılara məruz qalan hicab...

Həzrət Fatimə (s.ə) - bir kamil insan nümunəsidir. Onun qısa, lakin başdan-başa məna ilə dolu olan həyatının hər anı Allaha Təalaya xidmətdən ibarətdir.

Həzrət Fatimənin (s.ə) insanlara vəsiyyət etdiyi ən mühüm dəyər - təqvadır. Təqva mövzusunda dinimizin çoxlu əməli göstərişləri vardır. Bununla əlaqəli Məsumlardan (ə) nəql edilən hədislərə nəzər salaq.



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Həzrət İmam Musa Kazım (ə) cənab Loğmandan (ə) oğluna dediyi bir mövzunu nəql edir. Həzrət Loğman (ə) oğluna buyurur:** "Dünya - dərin dənizə bənzər. Çox insanlar onda qərq olublar. Buna görə də, xilas olmaq üçün sənin bu dənizdə mindiyin gəmin gərək İlahi təqva, onun yükü - iman, yelkəni - təvəkkül, idarə edəni - ağıl, yol göstərəni - elm və sükanı da səbir olsun".

Həzrət Loğmanın (ə) bu mübarək buyuruşuna diqqət etsək, bir neçə incə mətləblərə varmış olarıq.

## Dünya elə bir dəniz kimidir ki, özündə çoxlarını qərq edib

Birincisi, dünyanın dərin dənizə bənzədilməsi məsələsidir. Yəni, dünya bir dərin dəniz kimidir. Dayaz deyil, səthi deyil - dərindir. Burada bir məsələ çıxır ki, insan özünü dərin dənizdə necə aparmalıdır? Necə ki, insan dərin dənizdə hazırlıqsız olmayır, eləcə də dünyada necə gəldi mövcud olması düzgün deyil.

Həzrət Loğman (ə) bizlərə öyrədir ki, dünya - dərin bir dəniz kimidir. Özü də bu dəniz o qədər dərindir ki, çox insanlar orada qərq olublar. Çoxlu sayda insanlar həmin dənizdə məhv olub, aradan gedib. Bu dərin dənizdə baş çıxarmaq çox çətindir. Qərq olanlar o kəslərdir ki, lazımi davranışları olmadığından həmin dənizdə qərq olublar. Dünya bax, belə bir yerdir. Çox dərin yerdir, burada burulğanlar olur, çoxlu keşməkeşlər olur. Bura - sadə və səthi bir yer deyil. İnsanın bu dünya üçün hazırlığı olmalıdır.

## Təqvadan başqa bütün miniklər bizi dərin okeanda yalqız qoyacaq

Bəli, çoxları bu dünyada bədbəxt olublar. Dünyanın belə bir çətinliklərə malik olduğunu bilən təqdirdə, istəyirik ki, bu burulğanlarda məhv olmayaq. İstəyirik ki, bu dünyada xilas olaq. Bunun üçün uyğun miniyimiz, gəmimiz olmalıdır. Həzrət Loğman (ə) bizlərə dənizin dərinliklərində batmamağımız, üzərində hərəkət edə bilməyimiz və salamat şəkildə sahilə gedib çıxmamız üçün ən yaxşı miniyin - İlahi təqva olduğunu çatdırır. Yəni bizlər Allahın istəyinə uyğun yaşamalı, Allahın rizası olmayan məsələlərdən uzaq olmayıyıq. Təqva - budur. Təqva budur ki, Allah istəyən kimi baxasan, Allah istəyən kimi danışasan, Onun istədiyi kimi davranasan və bu kimi. Və eyni zamanda Allahın istəmədiklərindən də çəkinəsən.

Bu, hər məsələyə - istər fərdi həyatımıza, istər ictimai həyatımıza, ailə həyatımıza, iqtisadi həyatımıza - hər bir işimizə aiddir. Əgər biz təqvanı özümüz üçün minik seçsək - fərdi, ailə, ictimai, iqtisadi həyatımızda gedib sahilə çıxa biləcəyik. Lakin əgər onu minik seçməsək, boğulub məhv olacağıq.

Əgər istəyiriksə həyatımızın bütün sahələrində nicat tapaq və sahilə gedib çıxa bilək, gərək miniyimiz təqva olsun. Bundan başqa etibarlı minik yoxdur. Yediyimizdə təqva, içdiyimizdə təqva, oxuduğumuzda təqva, baxdığımızda təqva, dostluğumuzda, qonşuluğumuzda təqva və s. Əgər miniyimiz bu olmasa, bizi suda qoyacaq. Bu dərin, burulğanlara malik olan dünyadan xilas olmaq üçün, gərək öz mövcudiyyətimizi təqva mövzusu ilə uyğunlaşdıraq.

## İman yükü olmayan gəmi sahilə çata bilməyəcək

İkinci məsələ budur ki, gərək həmin gəminin yükü olsun. Əgər o yük olmasa, biz bir yerə gedib çıxa bilmərik və minikdən də doğru-dürüst istifadə edə bilmərik. Bu yük - imandır. İmanımız nə qədər inkişaf edərsə və nə qədər artarsa, bizim sahilə gedib çıxmamız üçün bir o qədər yardımçı olar. Biri var, insanın imanı bu həddə olar ki, deyər: "Bilirəm, Allah var" və bununla bitər. Biri var, imanı bir həddədir ki, deyər: "Düzdür, namaz vacibdir, amma yəqin ki, qılmasan da olar". Təbii ki, belə iman yetərli deyil. Az imanla insan gedib sahilə çıxa bilməz. Elə bir burulğanlar meydana gəlib çıxar ki, orada lazım olduğu kimi davrana bilməz. Ona görə də insan gəminin yükünə, yəni öz imanına xüsusi diqqət etməlidir.

## Bütün işlər görüldükdən sonra özünü Allahın tofiqatına təhvil ver

Bir mühüm məsələni də Həzrət Loğman (ə) bizə öyrədir ki, bu da təvəkküldür. Gərək gəminin yelkəni təvəkkül olsun. Yəni insan ondan asılı olanı edəndən sonra, bacardıqlarını gördükdən sonra, gərək özünü Allahın tofiqat küləyinə təhvil versin. Bütün görülməlilər olduqdan sonra, gərək insan özünü Allahın xüsusi inayətlərinə təhvil versin. Bəndə olaraq, nə mümkündür etdikdən sonra, gərək bu küləyə təhvil verəsən işlərini. Bundan sonra külək gəmini hansı istiqamətə aparacaqsa - səndən deyil, ondan asılıdır. Gərək insan özünü Allaha təslim etsin. İnsan ondan asılı olanları yerinə yetirdikdən sonra, özünü mənəvi, nurani küləklərin ixtiyarına buraxmalıdır.

Digər məsələ gəmini idarə edənlə bağlıdır. Həzrət Loğman (ə) bizlərə çatdırır ki, həmin gəminin idarə edəni, kapitanı - ağıldır. Əqlani rəftar etməlisən. İnsanın hərəkətləri ağlabatan olmalıdır. Həyatın bütün sahələrində hərəkətlərimizin tədbirliliyi ağıla söykənməlidir. Əql - idarə edəndir. Əql olmayan bir yerdə İslam yoxdur. Bir işlərdə, bir davranışlarda ki, orada əql yoxdur - orada İslam yoxdur. İslam bizə fərdi, ailə, ictimai, iqtisadi işlərimizi görərkən əqlə söykənməyi öyrədir. Dünyada bizim işlərimizi başında əql dayanmalıdır. Əqllə uzlaşmayan işlərin İslama aidiyyəti yoxdur. İşlər əqlə uyğun olmalıdır.

"Emosional durumum belədir", "hisslərim coşub", "ürəyim belə istəyir" kimi məsələlərin İslama aidiyyəti yoxdur. İslam deyir ki, işlərin idarəsi əqlə söykənməlidir. İnsan çalışmalıdır özünü elə aparsın ki, bir gün, bir həftə, bir ay, bir il sonra da, on il sonra da deməsin ki, o zaman bir qədər emosional idim və bunu etdim. İşlərin əqlani yükü olmalıdır. Əqlani görülən işlərə görə insan sonradan peşman olmaz. Beləliklə, bu dünyanın dərin burulğanlarının içində təqva miniyinə minərkən, imanla yüklənərkən, mənəvi küləklərə təvəkkül edərkən - tədbirliliyi də ağıl üzərində qurmalıyıq.

## Elmsiz sürət insanı hədəfdən xeyli uzaqlaşdıra bilər

Bəs gəminin yol göstərəni, kompası, xəritəsi nədir? Həzrət Loğman (ə) bizə öyrədir ki, bu, elmdir. Əgər insan bir işi yalnız beyninə təsadüfən gələnlə deyil, seçimlə, iradə ilə görmək istəyirsə, gərək bu işin görülməsi bilgiyə, elmə söykənsin. Yaxşı miniklə sürətlə gedirsən, heç bir problem də yoxdur. Amma yol ayrıcına çatanda hansı tərəfə dönəcəyini bilmirsən. Sürətlə sağa getsən, bir də görərsən ki, səhv yolla getmisən və o sürət əslində nə qədər çox olubsa, bir o qədər sənin ziyanına işləyib.

Amma yolu bilən, sağa lazımdısa - o istiqamətə, sola lazımdırsa da həmin istiqamətə gedir və hədəfə çatır. Deməli, bilgisi olmayanın sürəti nə qədər böyükdürsə, hədəfdən bir o qədər uzaqlaşa bilər. İnsanın məlumatlılığı, bilgiliyi çox önəmlidir. Elmsiz hərəkətlərin İslama aidiyyəti yoxdur. Düşüncəsiz hərəkətlərin İslama heç bir aidiyyəti yoxdur. Əgər İslami həyat yaşamaq istəyiriksə, gərək bütün hərəkətlərimiz elmə söykənsin. Yoxsa bu dərin, ucu-bucağı bilinməyən dənizdə yolu itirəcəyik.

Həzrət Loğman (ə) həmin gəminin bir çalarını da açıqlayır. Buyurur ki, gərək həmin gəminin sükanı səbir olsun. Belə olmamalıdır ki, səni hansı tərəfə istəsələr, apara bilsinlər. Səbirlə baxmaq lazımdır ki, miniyin mahiyyəti haraya uyğundursa, o tərəfə də hərəkət edəsən. Miniyin mahiyyəti təqvadırsa, deməli, gəmi Allahın rizası olan yerə sürüləcək.

## İslam tarixi Peyğəmbər (ə) ailəsinin müsibətini yaşayıb

Əyyami-Fatimə (s.ə) günlərinə qayıdaq. Süleym ibni Qeysdən nəql olunur ki, "Xilafətin bir dönəmi idi və o dönəmdə işçilərin maaşını iki dəfə azaltmışdılar. Bu baş verən zaman Qunfuzun (lən) maaşını bütövlükdə ödədilər. Gördüm Əmirəlmöminin Həzrət Əli (ə) Peyğəmbər (s) məscidinə daxil oldu və orada bir küncdə əyləşmiş müsəlmanlar Həzrət Əmirəlmöminindən (ə) bunun səbəbini soruşdular ki, bəs nəyə görə belə rəftar ediblər, Qunfuzun (lən) maaşını tam ödəyiblər, amma qalanların maaşını azaldıblar.

**Həzrət Əli (ə) ətrafına baxıb gözlərindən yaş axıdaraq, buyurdu:** "Qunfuzun (lən) pulunu ona görə kəsmədilər ki, ona bu yolla təşəkkürlərini bildirdilər. Çünki onun Həzrət Fatiməyə (s.ə) vurduğu qamçının izləri Həzrət Zəhranın (s.ə) vəfat edənə qədər qolunda qolbaq kimi qaralmış halda qalmaqda idi". Yəni Əhli-Beyt (ə) davamçıları bunun fərqində olmalıdırlar ki, İslam tarixində belə bir müsibətli dövrlər olub. Bir vaxt olub ki, Həzrət Əmirəlmöminin (ə) bütün bunların dərdlərini, müsibətlərinin ağırlığını öz üzərində daşıyıb.

Allahdan istəyimiz budur ki, dünyanın bu çətin və imtahanlı durumunda miniklərimizi təqva, yüklərimizi iman, yelkənlərimizi təvəkkül, tədbirliliyimizi ağıl, yol göstərənimizi elm, sükanlarımızı isə gerçək səbir qərar versin.

## Həzrət Fatimənin (s.ə) həyatında Qurani-Kərim

**Qurani-Kərim Böyük Peyğəmbərimizin (s) canlı möcüzəsi, cavidan bir kitabdır ki, Peyğəmbərimizin (s) vəfatından sonra belə, yenə də möcüzə olaraq qalır. Allah Təala bu kitabı həyatımızın hidayət kitabı elan etmişdir. Belə ki, Allah buyurur:** "Həqiqətən bu Quran (insan cəmiyyətini) ən möhkəm və sabit yola və dinə hidayət edir və həmişə yaxşı işlər görən möminlərə, onlar üçün (dünyada və axirətdə) böyük bir mükafat olması müjdəsini verir". ("İsra" surəsi 9).

**Quranın həyatımızdakı mühüm roluna və Peyğəmbərimizin (s), Məsum İmamların (ə) və İlahi övliyaların Quran ayələrindən bəhrələnməyimiz üçün verdikləri tövsiyələrə diqqət edək. Peyğəmbərimiz (s) "Səqəleyn" həidisində buyurur:** "Mən sizi tərk edirəm, halbuki sizin aranızda iki qiymətli şeyi qoyub gedirəm. Əgər bu ikisinə söykənsəniz, yolunuzu azmazsınız: Allahın kitabı və Əhli-Beytim".

**Peyğəmbərimizin (s) bu vəsiyyətinə uyğun olaraq, Həzrət Fatimə (s.ə) öz məşhur xütbəsində mühacir və ənsarlara xitab edərək, buyurmuşdur:** "Agah olun ki, Allahın Peyğəmbəri (s) qiymətli və böyük bir əmanəti, yəni səma kitabı olan Quranı sizə əmanət qoyub getmişdir. O, səadət və təkamülün kamil nüsxəsidir. Allahın nuru və bürhanı, Böyük Allahın gücü, hüccət və İlahi qanunlar məcmuəsi bu Kitabda aydın verilmişdir. Əgər onun hökmlərinə əməl etsəniz, səadət və təkamülün son həddinə çatarsınız. Zəlalət və cəhalətin zülmətindən nicat taparsınız. Bu, elə bir təkamüldür ki, başqalarının həsədinə səbəb olar".

Həzrət Zəhra (s.ə) elə bir ailədə böyümüşdü ki, bu ev Quranın nazil olma yeri idi. Həzrət Zəhra (s.ə) vəhy ab-havasında böyüyüb, boya-başa çatmışdı.

**Həzrət Zəhra (s.ə) da Quranla yaxından ünsiyyətdə idi. Səlman nəql edir:** "Allahın Rəsulu (s) məni iş görmək üçün Fatimənin (s.ə) evinə yolladı, evin qapısına yaxınlaşanda evin içində Quran tilavət edən Fatimənin (s.ə) səsini eşitdim".

**Səlman başqa bir hədisdə deyir:** "Zəhranın (s.ə) evinə daxil oldum, gördüm ki, öz işi ilə məşğul ola-ola, Quran oxuyur".

**Həzrət Fatimə (s.ə) buyurur:** "Sizin dünyanızdan üç şey mənim üçün sevimlidir: Quranı tilavət etmək, Rəsulallahın (s) simasına baxmaq və Allah yolunda infaq etmək".

**Allah Təala bizləri Həzrət Zəhranın (s.ə) yolunu tanıyıb, bu yolla gedənlərdən qərar versin! Amin!**

# YENİ MÜSAVAT

## Son səhifə

N 30 (7200) 8 fevral 2019




## Fransız kişi səhvən ona göndərilən qızılları polisə verib

Fransanın Van şəhər sakini səhvən ona gəlmiş bağlamanı geri qaytarıb və mükafat olaraq qızıl alıb. Bu barədə "The Local" nəşri xəbər yazıb. 27 yaşlı Julyen poçt vasitəsilə həyat yoldaşı üçün çimərlik paltarı sifariş edib və ona bağlama gətirəndə təəccüblənib. O, bağlamanın içinə baxmadan qəbzi imzalayıb. Daha sonra isə gələn bağlamanın içindəkilərin qiymətinə baxanda şoka girib. Kişinin imzaladığı qəbzdə bağlamanın 20 min avro dəyərində olduğu göstərilib.

Kişi qutunu açanda görüb ki, onun içində çimərlik paltarı yerinə 20-30 qramlıq qızıl külçələr, XVII və XVIII əsrlərdə Fransada istifadə olunan sikkələr var. Julyen şəxsən özü bağlamanı düzgün ünvana çatdırmağı qərarlaşdırıb. Amma qəbzdə qeyd edilən ünvana getdikdə orada heç kimi görməyib. Bu halda isə kişi polisə gedib və qızılı orada qoyub. Bir neçə gün sonra gerçək ünvan tapılıb və bağlama sahibinə çatdırılıb.

Bağlamanı göndərən Fransa Milli Qızıl Assosiasiyası Julyeni bu dürüstlüyünə və kişiliyinə görə mükafatlandırmaq istəyib. Onlar kişiyə qiyməti açıqlanmayan qızıl hədiyyə ediblər. Amma o, hələ də sifariş verdiyi bikininin çatdırılmasını gözləyir.

2018-ci ildə xəbər verildi ki, Rumıniyanın Bikici kəndində bir fəhlə köhnə şkafda 95 min avro tapıb. O, bu şkafı özü satın alsa da, daha öncəki sahibini tapıb və pulları ona verib.

# Qadınlar 25 yaşdan sonra...çətin ağlayır



Statistikaya görə ən az ağlayan qadınlar belə ömürlərinin 16 ayını göz yaşı axıtmaqla keçirirlər. Araşdırmaya görə, göz yaşı axıtmanın böyük qismi uşaqlıq, yeniyetməlik və gənclik çağına təsadüf edir. Bu norma isə orta yaş dövründə nisbətən azalır. Qadınlar 19 yaşdan sonra çox az hallarda ağlayırlar. Onlar bu dövrdən sonra ciddi səbəb olmadan göz yaşı axıtmağı özləri üçün əksiklik hesab etdiklərindən, bu cür vərdişlərini unutmağa çalışırlar. 19-23 yaş arası tökülən göz yaşlarının əsas səbəblərinin sevgi və romantik filmlər olduğu bildirilir. Qadınların ən çox üzən səbəblər isə uzun sürən münasibətlərin bitməsi olur. İddialara görə, qadınları 25 yaşdan sonra ağlatmaq elə də asan olmur. Bu yaşdan sonra onları ağladan yeganə şey romantik filmlərdir.

# Fast fooddan qurtuldu və 82.5 kilo arıqladı




Kanadada yaşayan 172 kilo çəkisi olan qız fast food asılılığından qurtuldu və 82.5 kiloya düşdü. Bu barədə "Daily Mail" nəşri xəbər verib. Alişa Makneyr məktəbdə oxuyan vaxt xeyli kökəlib. O, arıqlamağı çox arzulasa da, özünü dietaya məcbur edə bilmirdi. Həmyaşıdlarının ona qarşı etdiyi həqarət və sataşmalara görə 14 yaşında məktəbi atıb. O, çəkisi 172 kiloya çatana qədər kökəlib. "Mənim əcaib bir vərdişim vardı ki, yeməkləri daha çox tinlərdəki kiçik kafelərdən alırdım. Bəzən mən bir naharda doymaq üçün beş ayrı fastfood kafesinə girirdim".

Qızın 17 yaşı olanda qazlı içkilərə meyl edib. "Bəzən nəfəs almağa çalışanda anlayırdım ki, mənim iki yolum qalıb: ya ölməli, ya da dəyişməliyəm"- bunu da qız deyib. İlk vaxtlar o, daha çox yeriməyə və özünə sağlam menyu qurmağa çalışırdı. Daha sonra fastfooddan tamamən imtina etdi və idman zallarına baş çəkməyə başladı.

"İndiyə qədər mən 82.5 kilo atdım. Bu isə mənim çəkimin yarısı deməkdir" - Makneyr belə deyib. Hazırda onun 21 yaşı var. İndi o, fitneslə məşğul olur və fərdi trener olmağa çalışır.

Fevral ayında xəbər verilmişdi ki, Los Anceles sakini iki dəfə arıqlamağa nail olub və professional modelə çevrilib. 19 yaşında, çəkisi 135 kilo olanda dənizdə üzdüyü zaman az qala boğulub ölürdü. Bu olaydan sonra o, dietaya başladı.




**QOÇ** - Müntəzəm surətdə təmasda olduğunuz adamların obyektiv rəyləri ilə hesablaşmağa çalışın. Məsləhət almaq ayıb iş deyil. Qazanmaq üçün çoxsaylı şanslarınız da mümkündür.

**BUĞA** - Maraqlı görüşlər yolunuzu gözləyir. Güman ki, sizi böhranlı vəziyyətdən çıxara bilən insanlarla qarşılaşacaqsınız. Amma belə məqamlarda təmkinli olun ki, sonda gülə biləsiniz.

**ƏKİZLƏR** - İşgüzar və riskli sövdələşmələrdə iştirakınızı təxirə salmağa çalışın. Ən azından bu təqvim deyilən məsələlər üçün önəmli deyil. Gün ərzində dostlarınızla bir yerdə olun.

**XƏRÇƏNG** - Bəxtinizə fəaliyyət və yeni əlaqələr üçün ən uğurlu məqamlar düşəcək. Odur ki, mövcud potensialınızdan maksimum bəhrələnin. Müqəddəs yerləri ziyarət etmək yaxşı olardı.

**ŞİR** - Məqsədlərinizi həyata keçirməkdə bəzi maneələrlə üzləşsəniz də, günün ümumi mənzərəsi istəyinizə uyğun tərzdə canlanacaq. Büdcənizdə artım da mümkündür, amma səhhətinizi qorumalısınız.

**QIZ** - Şəxsi işlərinizdə böyük dönüş gözlənilir. Qarşıda duran yarım ay ərzində görəcəyiniz işləri reallığa yaxınlaşdırmaq üçün müttəfiqlərinizlə əlaqələri dərinləşdirməlisiniz.

**TƏRƏZİ** - Günün ümumi mənzərəsi gərgin olsa da, bunun qarşısını ala bilərsiniz. İlk növbədə səbr nümayiş etdirin. Nahardan sonra isə yalnız istirahət və gəzintilərə meyl edin.

**ƏQRƏB** - Gələcək perspektivlərinizi reallaşdırmaq istiqamətində tənbəllik edirsiniz. Belə ki, sizə lazım olan bütün gedişləri bildiyiniz halda fəaliyyət göstərmirsiniz. Əzmkarlığınızı artırın.

**OXATAN** - Başınızdakı yeni ideyaları reallaşdırmağı bacarsanız, uğurlarınız daha da yaxınlaşacaq. Yeganə narahatlığınız səhhətlə bağlı ola bilər. Büdcənizi boş məsrəflərə xərcləməyin.

**OĞLAQ** - İxtiyarınıza elə bir gün verilib ki, yalnız öz gücünüzə güvənməlisiniz. Kənar müdaxilə və məsləhətlər o qədər də önəmli deyil. Günün ikinci yarısını bütünlüklə sevgiyə həsr edin.

**SUTÖKƏN** - Çoxdan bəri donub qalmış planlarınızı dirçəltmək üçün bəzi şəxslərə müraciət etməyiniz böyük səmərə verə bilər. Saat 14-dən sonra iştirak etdiyiniz bütün görüşlər xeyrinizədir.

**BALIQLAR** - Səhər saatlarında qeyri-ciddi adamların xoşagəlməz rəftarı ilə üzləşə bilərsiniz. Çalışın ki, belə amillər ovqatınızı korlamasın. Nahardan sonra səfərə çıxmağa dəyər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Oyuncaq Kenə bənzəmək üçün 62-ci dəfə əməliyyatdan keçib



Oyuncaq Kenə bənzəmək üçün keçirmədiyi əməliyyat qalmayan 35 yaşlı Rodrigo Alves həyatının ən böyük əməliyyatı üçün ötən günlərdə İrana gedib. 62-ci əməliyyatla bütün üzünü haradasa tamamən dəyişdirən Alves əməliyyat öncəsi və sonrası İnstaqram təqibçilərinə proseslə bağlı məlumat vermişdi. Keçirdiyi estetik əməliyyatlarla başqa bir insana çevrilən Rodrigo Alves estetik asılılığından əziyyət çəkir. Rodrigo Alves İranda göz qapaqlarını qaldırdı, çənə implantı etdirdi, burun düzəltdirmə əməliyyatları keçirdi. Alvesin keçirdiyi bütün bu əməliyyatlar 5 saat davam etdi.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.755